**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QEYRİ-NEFT SEKTORUNUN İXRAC POTENSİALININ İNKİŞAFI PROBLEMLƏRİ

İxtisas: 5308.01 – "Ümumi iqtisadiyyat"

Elm sahəsi: 53 –İqtisadiyyat elmləri

İddiaçı: **Şəkərəliyeva Zibeydə Arif qızı**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyat" kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** iqtisad elmləri doktoru, professor
**Məhiş Alış oğlu Əhmədov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Səfər Həsən oğlu Pürhani**
iqtisad elmləri doktoru, professor
**Kamil Ağazaman oğlu Şahbazov**
iqtisad elmləri doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**
iqtisad elmləri doktoru, professor
**Pəri Əmirəhməd qızı Həsənova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

ED 2.10 Dissertasiya şurasının sədri: professor — iqtisad elmləri dokoru,
**Yaşar Atakişi oğlu Kəlbiyev**

ED 2.10 Dissertasiya şurasının elmi katibi: — iqtisad üzrə fəlsəfə dokoru
**Suqra İnqilab qızı Hümbətova**

Elmi seminarın sədri: professor — iqtisad elmləri dokoru,
**Rəsul Ənvər oğlu Balayev**

ÜMUMİ ŞÖBƏ

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycan son onilliklərdə özünün iqtisadi inkişaf modelinin formalaşdırılması və bununla bağlı zəruri tədbirlərin görülməsi istiqamətində önəmli addımlar atmışdır. Qlobal çağırışlar şəraitində və dünya iqtisadiyyatında baş verən problemlər kontekstində ölkə iqtisadiyyatının dinamik inkişafının təmin olunması, xüsusilə qlobal təhdidlərə qarşı onun dayanıqlılığının artırılması əsas strateji vəzifələr kimi qarşıya qoyulmuşdur. 1994-cü ildə sentyabr ayının 20-də imzalanmış "Əsrin kontraktı"nın icrası nəticəsində milli iqtisadiyyatın beynəlxalq əmək bölgüsü sistemində ixtisaslaşması gücləndirilmiş, neft sənayesinin inkişafı hesabına iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi potensialı formalaşdırılmış, iqtisadi, institusional və struktur dəyişiklikləri aparılmışdır. Amma, 2008-ci ilin sonlarından başlayaraq dünya maliyyə böhranının mənfi fəsadları nəticəsində milli iqtisadiyyatın inkişaf dinamikası zəifləmiş və ölkəyə daxil olan valyuta vəsaitlərinin həcmi azalmışdır. Xüsusilə, dünya bazarlarında ölkəmizin əsas ixrac maddəsi olan neftin qiymətinin bir neçə dəfə aşağı düşməsi nəticəsində 2014-cü ilin sonlarından etibarən ölkəmizin yenicə inkişaf etməyə başlamış iqtisadi sisteminə, makroiqtisadi və makromaliyyə sabitliyinə ciddi təhlükələr yaranmışdır. Nəticədə 2015-ci il ərzində Azərbaycanda milli valyutanın – manatın ikiqat devalvasiyası baş vermiş, maliyyə sabitliyi nisbətən zəifləmiş və bu səbəblərdən iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, ilk növbədə neft amilindən asılılığının azaldılması zəruriliyi xeyli aktuallaşmış, qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsinin prioritetliyi və onun ixrac potensialının yüksəldilməsini strateji vəzifə olaraq ön plana çıxmışdır.

2016-cı ildə bu istiqamətdə daha geniş miqyaslı tədbirlərin görülməsi və iqtisadi inkişaf hədəflərinin yenilənməsi həyata keçirilməyə başlanmışdır. Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş strateji yol xəritələrində iqtisadiyyatın 11 perspektiv istiqaməti üzrə yaxın, orta və uzaq perspektivlər nəzərə alınmaqla prioritetlər və hədəflər müəyyənləşdirilmişdir. Qeyri-neft sektorunun inkişafının yeni müstəviyə qaldırılması, yüksək

texnologiyalar əsasında iqtisadi inkişafın təmin edilməsi, texnoparkların, sənaye parklarının, sənaye məhəllələrinin, aqroparkların yaradılması, mərkəzi şəhərlərlə yanaşı ölkə regionlarında rəqabətqabiliyyətli və ixracyönlü müəssisələr şəbəkəsinin yaradılması prosesləri xeyli sürətləndirilmişdir. Sumqayıt sənaye mərkəzində ixracyönlü iri istehsal qurğuları istismara verilmiş və qeyri-neft ixracının strukturunun genişləndirilməsinə başlanılmışdır. Aqrar sahənin elmi əsaslarla inkişaf etdirilməsi, regionlarda yüksək texnologiyaların, o cümlədən "ağıllı" texnologiyaların tətbiqi təmin olunmaqla yeni ixracyönlü müəssisələrin yaradılması, ticarət logistika mərkəzlərinin təşkil edilməsi, infrastruktur şəbəkəsinin formalaşdırılması, sahibkarlıq subyektlərinə dövlət dəstəyi və s. istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi mexanizmlərinin gücləndirilməsi məsələləri də qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün ciddi əsasların yaradılmasına imkan vermişdir. formalaşdırılmışdır. Təsadufi deyildir ki, son illərdə qeyri-neft sektorunun artım tempi, həmçinin qeyri-neft ixracının dinamikası ciddi artım nümayiş etdirməkdədir.

Hazırki dövrdə ölkəmizin qeyri-neft sektorunun inkişafı aktual və mühüm əhəmiyyət kəsb edən amilə çevrilmişdir. 2020-ci il sentyabr ayının 27-dən başlayan 44 günlük vətən müharibəsinin Böyük Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar bu gün işğaldan azad olunmuş ərazilərdə artıq geniş miqyaslı infrastruktur şəbəkəsi formalaşdırılmaqdadır və eyni zamanda ixracyönlü iqtisadiyyat sahələrinin infrastrukturunun yaradılması tədbirləri görülməkdədir; "Ağıllı" texnologiyalar əsasında layihələr həyata keçirilir; hazırda 17 respublika və beynəlxalq əhəmiyyətli nəqliyyat layihələri reallaşdırılmaqdadır; Füzuli və Zəngilan Beynəlxalq Hava Limanlarıı fəaliyyətə başlamış, Laçın beynəlxalq hava limanının tikintisi isə sürətlə davam etməkdədir. Yerli tələbatı ödəməklə, ixracyönlü məhsulların istehsalının strukturunun genişləndirilməsi və həcminin artırılması məqsədilə, Ağdamda sənaye parkının, Cəbrayıl rayonunda isə "Araz Vadisi İqtisadi Zonası"nın fəaliyyətinin genişləndirilməsi prosesləri sürətlənməkdədir.Yaxın perspektivdə Zəngəzur dəhlizinin istismara verilməsi isə, regionun investisiya cəlbediciliyini yüksəltməklə, xarici-iqtisadi əlaqələrin genişləndirilməsinə və

ölkəmizin qeyri-neft ixrac potensialının əhəmiyyətli səviyyədə artmasına əlavə imkanlar yaradacaqdır. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə bərpa olunan günəş enerjisi infrastrukturunun yaradılmasına başlanılmışdır.

Ölkə iqtisadiyyatının şaxələndirilməsi,onun strukturunun təkmilləşdirilməsi istiqamətində son dövrlərdə həyata keçirilən məqsədyönlü tədbirlərin və əldə edilmiş nəticələrin qiymətləndiril-məsi fikrimizcə, belə bir qənaətə gəlməyə əsas verir ki, bu gün rüspublikamızın iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi məsə-lələri yeni mərhələyə keçmişdir. Burada daha fərqli və uzun-müddətli perspektivləri özündə ehtiva edən hədəflər diqqət çəkir. Əsas məqsəd yüksək texnologiyaların və innovativ funksiyaların daha intensiv tətbiq edilməsi və iqtisadiyyatın nef-tqaz amilindən asılılığının azaldılmasıdır. Bu baxımdan, ölkə Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i xüsusi qeyd etmək lazımdır. Müəyyənləşdirilən milli prioritetlərin sistemli və planlı şəkildə reallaşdırılması məqsədilə AR Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" artıq uğurla reallaşdırılmaqdadır. Qeyri-neftqaz sektoru sahələrində yüksək, o cümlədən "ağıllı" texnologiyaların tətbiqinə, yaşıl iqtisadiyyatın formalaşdırılması və inkişafına, alternativ enerji mənbələri infra-strukturunun genişləndirilməsinə, müasir emal komplekslərinin yaradılmasına ciddi önəm verilməkdədir. Digər mühüm bir məsələ, AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına intensiv olaraq başlanılmasıdır. Belə ki, Böyük Qayıdış prosesləri sürətləndikcə digər məsələlərlə yanaşı, emal müəssisələrinin yaradılması və qeyri-neftqaz sektoru sahələrinin potensialından səmərəli istifadə olunması imkanları artmaqdadır.

Qeyd olunan amillər, irəli sürülən vəzifələr,həyata keçirilən praktiki tədbirlər ölkəmizdə qeyri-neft sektorunun inkişaf prob-lemlərini fundamental səviyyədə araşdırılmasını və öyrənilməsini vacib edir və bu sahədə yeni elmi nəzəri konseptual yanaşmaların

açıqlanmasını ölkəmizdə qeyri-neft sektorunun inkişafının makroiqtisadi təhlilinin aparılması və obyektiv olaraq qiymətləndirilməsini, xüsusilə qeyri-neft sektorunun ixrac potensialının inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsi, bu potensialın artırılmasında innovasiyalar və yüksək texnologiyalardan istifadənin təşkilati-iqtisadi mexanizmlərinin işlənilməsi və nəhayət, bunların əsasında Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının inkişafının gücləndirilməsi istiqamətlərinin müəyyənləşdirilməsini zəruri edir.

Mövzunun işlənmə dərəcəsi ilə əlaqədar olaraq, Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının formalaşdırılması və bununla bağlı problemlərin həlli yollarının müəyyənləşdirilməsi, ümumilikdə qeyri-neft sektorunun inkişafı ilə bağlı ölkəmizin, eyni zamanda, xarici ölkələrin tədqiqatçı alimlərinin elmi əsərlərini qeyd etmək olar. Azərbaycanlı iqtisadçı-alimlərdən akademik Z.Ə.Səmədzadə, A.F.Musayev, Ə.X.Nuriyev, Ə.C.Muradov, F.F.Mustafayev, Ə.Ə.Ələkbərov, Ə.P.Babayev, A.Ş.Şəkərəliyev, R.T.Həsənov, M.A.Əhmədov, B.X.Ataşov, Q.N.Manafov, Ü.Q.Əliyev, Ə.Q.Əlirzayev, T.N.Əliyev, Ş.T.Əliyev, R.Ə.Balayev, K.A.Şahbazov, S.H.Pürhani, F.Ə.Qənbərov, G.A.Əzizova, N.Ə.Həsənov, A.D.Hüseynova, V.Ə.Qasımlı və digərləri göstərilən problemlərlə bağlı dəyərli araşdırmalar aparmış, dissertasiya işləri və monoqrafiyalar yazmış, davamlı şəkildə elmi məqalələr dərc etdirmişlər.

Klassik iqtisadi məktəbin yaradıcıları, eyni zamanda, bir qrup xarici ölkə alimləri iqtisadiyyatın müxtəlif sahələrinin, o cümlədən hasilat sahələrinin iqtisadi potensialının gücləndirilməsi, iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılması, təbii ehtiyatlardan və iqtisadi resurslardan səmərəli istifadə etməklə ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, əlavə dəyər və maliyyə mənbələrinin şaxələndirilməsi problemləri üzrə elmi əsərlər yazmışlar. Bunlarla əlaqədar A.Smit, D.Rikardo, A.Marşall, J.Mill, J.Sey, J. Stiqlits, R.Vernon, A.Veber, P.Lindert, P.Samuelson və digərlərinin işlətdiyi elmi nəzəriyyələri və elmi əsərlərini qeyd etmək olar. Bundan başqa, milli iqtisadiyyatın inkişaf etdirilməsi, onun strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektoru sahələrinin əhəmiyyətini, inkişaf amillərinin və mexanizmlərinin potensialının öyrənilməsi və

qiymətləndirilməsi, onların təsərrüfat, maliyyə və ixrac dövriyyəsinə cəlb olunması, ixrac potensialının artırılması istiqamətində tədqiqatçı-alimlərdən V.Y.Rıbalkin, V.K.Sençaqov, R.İ.Xasbulatov, N.Y.Buxvalov, O.N.Bezverxayab, Q.A.Kolobova, A.İ.Sarıqulov, R.M.Şaxnoviç, T.A.Çekulina və başqalarının elmi əsərlərini göstərmək olar.

Yuxarıda göstərilən tədqiqatçı-alimlərin elmi əsərlərin və tədqiqat işlərinin elmi nəzəri-metodoloji əhəmiyyətini və praktiki səmərəsini qeyd etməklə bərabər, qlobal transformasiyalar şəraitində ölkəmizdə iqtisadi inkişaf proseslərinə yeni elmi-nəzəri baxışların formalaşdırılması, mövcud mexanizmlərin təkmilləşdirilməsi, qeyri-neft sektorunun ixrac potensialının artırılması istiqamətində sistemli tədbirlərin görülməsi və ixracın strukturunun diversifikasiyalaş-dırılması tədbirlərinin həyata keçirilməsinə, yeni fəaliyyət mexanizmlərinin işlənməsinə ehtiyac vardır. Bunlar nəzərə alınmaqla, müasir dövrdə qeyri-neft sektorunun ixrac potensialının inkişaf problemlərinin daha geniş və dərindən tədqiq edilməsi məsələləri vacibliyi ilə diqqət çəkirlər.

**Tədqiqatın obyekti kimi** qeyri-neft sektorunun ixracyönlü sahələri, ölkəmizin ixrac siyasəti və ixrac əməliyyatları, ixrac potensialının artırılmasına məsul qurumların fəaliyyət prinsipləri və mexanizmləri götürülmüşdür.

**Tədqiqatın predmeti** isə qeyri-neft sektorunun ixrac potensialının inkişaf problemlərinin və onların həlli yollarının müəyyənləşdirilməsindən, ixrac potensialının tənzimlənməsi və təkmilləşdirilməsindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın məqsədi qeyri-neft sektorunun ixrac potensialının inkişafı problemlərinin tədqiqindən və bu problemlərin həlli yollarının müəyyən-ləşdirilməsindən, ixrac potensialının artırılması imkanlarının amillərinin və mexanizmlərinin aşkarlanmasından və bu istiqamətdə elmi-nəzəri və praktiki baxımdan, əsaslandırılmış təkliflərin hazırlanmasından ibarətdir. Bu məqsədlə işin strukturuna uyğun olaraq qarşıya qoyulan vəzifələr aşağıdakılardan ibarətdir:

- Qeyri-neft sektorunun inkişaf problemlərinə və ixrac potensialının artırılması məsələlərinə sosial-iqtisadi nəzəri yanaşmaların tədqiqi və bu aspektdə müəllif əsaslandırılmalı;
- Müasir dövrdə qeyri-neft sektorunun ixrac potensialının inkişafının metodoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- İxrac potensialının genişləndirilməsində dünya ölkələrinin təcrübələrinin araşdırılması və ümumiləşdirilməsi;
- Qeyri-neft sektorunun inkişaf etdirilməsində dövlət dəstəyi ilə bağlı təşkilati-iqtisadi mexanizmlərin nəzərdən keçirilməsi;
- Qeyri-neft sektoru sahələrində ixrac fəaliyyətinin təhlil olunması və dəyərləndirilməsi;
- Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının mövcud durumunun tədqiqi;
- Yeni şəraitdə qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsi imkanlarının zəruriliyinin amilləri və mexanizmlərinin araşdırılması;
- Azərbaycanda qeyri-neft sektorunun ixrac imkanlarının yüksəldilməsində innovativ yanaşmaların və yüksək texnologiyalarının tətbiqi proseslərinin araşdırılması;
- Qeyri-neft sektorunda innovasiya-investisiya fəaliyyətinin təhlil olunması və ixrac potensialının artırılmasında innovasiyayönlü iqtisadi mexanizmlərin əhəmiyyətinin dəyərləndiriməsi;
- Qeyri-neft sektorunun ixrac imkanlarının yüksəldilməsində rəqəmsal texnologiyalardan istifadənin əhəmiyyətinin qiymətləndirilməsi;
- Ölkədə qeyri-neft sektorunun ixrac potensialının reallaşdırılmasının institusional əsaslarının və gömrük-tarif tənzimlənməsinin tənzimlənməsinin, həmçinin dövlət tənzimlənməsinin zəruriliyinin, həmçinin dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsinin əsaslandırılması;
- İşğaldan azad olunmuş ərazilər və postpandemiyanın çağırışlarına uyğun olaraq, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və s.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat prosesində bir sıra iqtisadi metodlardan, o cümlədən təhlil, sintez, müqayisəli təhlil, ümumiləşdirmə kimi araşdırma formalarından istifadə olunmuşdur.

Bunlarla bərabər, qanun və rəsmi sənədlərdən, beynəlxalq təcrübədən və beynəlxalq səviyyədə hazırlanan analitik araşdırmalardan, müvafiq elmi-tədqiqat institutlarının və təşkilatlarının elmi metodoloji materiallarından istifadə edilmiş, zəruri statistik baza məlumatlarına müraciətlər olunmuş, eyni zamanda, müxtəlif Azərbaycan və xarici ölkə alimlərinin müvafiq əsərlərinə istinadlar edilmiş, bu zaman problemlər üzrə müəllif mövqeyi diqqət mərkəzində saxlanılmışdır.

**Müdafiəyə çıxarılan əsas elmi müddəalar** aşağıdakılardan ibarətdir:

- Yeni çağırışlar şəraitində qeyri-neft sektorunun prioritet inkişafının təmin edilməsinə və ixrac potensialının artırılmasına müasir konseptual yanaşmaların formalaşdırılması qaçılmaz bir prosesdir;
- Qlobal iqtisadi transformasiyalar konteksində qeyri-neft sektorunun ixrac potensialının inkişafının yeni xüsusiyyətlərinin tədqiqinə və müəyyənləşdirilməsi mühüm elmi-nəzəri və praktiki zərurət və əhəmiyyət kəsb edir;
- neft hasil edən ölkələrdə qeyri-neft təmayüllü iqtisadiyyat Sahələrinin inkişafına dair beynəlxalq təcrübənin daha dərindən öyrənilməsinə ehtiyac vardır;
- Azərbaycanda qeyri-neft sektorunun inkişafının makroiqtisadi təhlili əsasında, obyektiv reallıqlar nöqteyi-nəzərindən qiymətləndirilmənin aparılması və adekvat tədbirlərin görülməsi tələb olunur;
- Azərbaycanda iqtisadi islahatların yeni mərhələyə keçməsi ilə bağlı olaraq, qeyri-neft sektoru sahələrinin inkişaf problemlərinin yeni həll mexanizmlərinin işlənməsini zərurətini ortaya çıxarmışdır;
- Qlobal iqtisadi hədəflər və səmtlərə uyğun olaraq, Azərbaycanda qeyri-neft sektorunu inkişafına dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi və ya yenilənməsi prosesləri müxtəlif səbəblərdən ləngiyir;
- Azərbaycanda qeyi-neft sektorunun ixrac potensialının xüsusiyyətlərinin daha real olaraq dəyərləndiriməsi zərurəti bu sektorun ixrac fəaliyyətinin daha dərin təhlilini və obyektiv qiymətləndirilməsini şərtləndirir;

- Azərbaycanda qeyri-neft sektorunda innovasiya-investisiya fəaliyyətinin ixrac potensialına təsirinin araşdırılmasına və bu sahədə innovasiyayönlü iqtisadi mexanizmlərin genişləndirilməsinə, rəqəmsal texnologiyalardan istifadənin dərinləşdirilməsinə yönəlmiş intensivliyi və sürəti hələ ki, qənaətbəxş səviyyədə deyildir;
- Qeyri-neft sektorunun ixrac potensialının reallaşdırılması istiqamətində qanunvericilik bazasının təkmilləşdirilməsinə və tənzimlənmə tədbirlərinin səmərəliliyinin artırılmasına tələbat yaranmışdır;
- Qeyri-neft sektorunun ixarc potensialının artırılmasında logistika və ticarət sisteminin imkanlarının yenidən qiymətləndirilməsi, gömrük- tarif tənzimlənməsi və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi son dərəcə vacibdir;
- Postpandemiya konteksində və işğaldan azad olunmuş ərazilərin imkanları nəzərə alınmaqla, qeyri-neft sektorunun ixrac potensialının inkişafının yeni istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm zərurət yaranıb və s.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- Qlobal transformasiyalardan yanaşmaqla, qeyri-neft sektorunun inkişaf problemlərinə və qeyri-neft ixracının formalaşdırılması proseslərinə müasir elmi-nəzəri baxış formalaşdırılmış və yanaşmalar müəyyənləşdirilmişdir;
- Hazırki dövrün obyektiv reallıqları nəzərə alınmaqla, Azərbaycanda qeyri-neft sektoru sahələrinin inkişaf prioritetlərinin və istiqamətlərinin əsaslandırılması təmin olunmuş və onların blok-sxemi hazırlanmışdır;
- Müasir dövrdə ölkə iqtisadiyyatının inkişaf prioritetləri və starteji hədəflərinə uyğun olaraq, qeyri-neft sektorunun ixrac potensialının əsas inkişaf xüsusiyyətləri sistemləşdirilmişdir;
- Azərbaycanın qeyri-neft sektoru sahələrinin müasir vəziyyəti təhlil olunmaqla, bu sahələrin inkişaf problemləri ilə bağlı situasiyanın qiymətləndirilməsinin GZİT təhlili aparılmaqla, müasir şəraitdə qeyri-neft sektorunun potensialı və perspektiv inkişaf imkanları qiymətləndirilmişdir;

- İqtisadiyyatın neftdən asılılığının azaldılması hədəf götürülməklə, qeyri-neft sektorunun inkişafının yeni mərhələyə qaldırılmasında dövlət tənzimlənməsi mexanizmlərinin əsaslandırılmış alqoritmi verilmişdir;
- Qlobal təhdidlər, daxili və xarici amillər baxılmaqla, Azərbaycanda qeyri-neft sektoru sahələrinin ixrac potensialının artımına mane olan amillərin və tədbirlərin blok-sxemi işlənmuişdir;
- Qlobal çağırışlar konteksində və mövcud potensialın qiymətləndirilməsi əsas götürülməklə, yeni iqtisadi ixrac potensialı vektorunun iqtisadiyyatın bütün strukturlarının funksional fəaliyyətlərinin gücləndirilməsinə təsirinin blok-sxemi hazırlanmışdır;
- Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin dinamikasında idxalın və ixracın quruluşundan, ixrac potensialı ilə bağlı araşdırılmalardan yanaşmaqla, qeyri-neft sektoru sahələrinin ixrac fəaliyyətinin qiymətləndirilməsi prinsipləri müəyyənləşdirilmişdir;
- Qeyri-neft sektorunun ixrac potensialını formalaşdıran və şərtləndirən amillərin təsnifatı aparılmış və qeyri-neft sektorunun ixrac potensialından səmərəli istifadənin tənzimlənməsinə dövlət dəstəyi mexanizmlərinin işlək bloku hazırlanmşdır;
- Qeyri-neft sektorunda innovasiya-investisiya fəaliyyətinin mövcud vəziyytindən, bu sahədə olan səmərəlilik problemlərindən çıxış etməklə, qeyri-neft sektorunda innovasiya-investisiya fəaliyyətinin səmərəlilik problemlərinə və onların həllinə yanaşmaların blok-sxemi işlənmişdir;
- Qeyri-neft sektoru sahələrinin ixrac potensialının yüksəldilməsində innovasiyayönlü iqtisadi mexanizmlərin tətbiqinin genişləndirilməsinin zəruriliyi açıqlanmaqla, bu sahədə və ixrac potensialının regional aspektdə artırılmasında texnoparkların təsirinin əsas istqamətləri müəyyənləşdirilmişdir;
- Qeyri-neft sektorunun ixrac potensialının artırılmasında rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsində olan problemlər göstərilməklə, ixrac potensialının inkişafında

rəqəmsal texnologiyalardan istifadənin səmərəli təşkili istiqamətlərinin blok-sxemi hazırlanmışdır;

- Qeyri-neft sektorunun ixrac potensialının müasir dövrün tələbləri səviyyəsinə uyğun olaraq artırılmasında logistika və ticarət sisteminin fəaliyyətinin genişləndirilməsinin vacibliyi, ixrac potensialının inkişafında gömrük-tarif tənzimlənməsinin və dövlət dəstəyi mexanizmlərinin maksimum təkmilləşdirilməsinin zəruliliyi əsaslandırılmışdır;
- Postpandemiya drayverləri və işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi hədəfləri nəzərə alınmaqla, Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının inkişaf etdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində verilmiş elmi nəticələrdən, mexanizmlərdən, təklif və tövsiyələrdən ölkəmizdə qeyri-neft sektorunun inkişafının qlobal çağırışlara və yeni şəraitin tələblərinə uyğunlaşdırılması, bu sahənin sosial-iqtisadi aspektlərindən yanaşmaqla, məqsədli dövlət proqramlarının və tədbirlər kompleksinin, fəaliyyət srtrategiyalarının və mexanizmlərinin hazırlanmasında, tənzimləyici və təkmilləşdirici tədbirlərin görülməsində istifadə edilə bilər. Eyni zamanda, qeyri-neft sektorunun inkişaf etdirilməsi və onun ixrac potensialının artırılması istiqamətində investisiya-innovasiya layihələrinin reallaşdırılmasında işdə yer alan mexanizmlərdən, prinsip və meyarlardan, metodoloji yanaşmalardan, verilmiş təklif və tövsiyyələrdən istifadə edilməsi faydalı olar.

Bunlarla bərabər, dissertasiya işinin elmi-nəzəri müddəalarından və materiallarından iqtisad profilli ali məktəblərdə “Azərbaycan iqtisadiyyatı”, “Dünya iqtisadiyyatı”, “Beynəlxalq iqtisadi münasibətlər”, “İqtisadiyyatın tənzimlənməsi”, «Dövlətin investisiya-innovasiya siyasəti», «Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi», “Menecment”, “Sənaye sahələrinin iqtisadiyyatı və menecment”, “İnnovasiya menecmenti” və s. fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Azərbaycan Dövlət İqtisad Universitetinin elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmaqla, yeni iqtisadi çaırışlar şəraitində

aktual problemlər üzrə daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə olunmuş və bəyənilmişdir.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 37 məqalə və tezisi, o cümlədən, 23 məqalə və 14 tezisi Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyat" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Üz qabığı və mündəricat (4055 işarə), giriş (20549 işarə), I fəsil (99321 işarə), II fəsil (59754 işarə), III fəsil (46268 işarə), IV fəsil (84593 işarə), V fəsil (78508 işarə), nəticə (24692 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (41407 işarə) üzrə ümumi həcm 478824 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 421156 işarədir.

## Dissertasiya işinin strukturu:

**Giriş.**

**I Fəsil. Qeyri-neft sektorunun inkişafının və ixrac potensialının formalaşdırılmasının nəzəri-konseptual əsasları.**

1.1. Qeyri-neft sektorunun sosial-iqtisadi aspektlərinə konseptual yanaşmalar.

1.2. Qeyri-neft sektorunun ixrac potensialının inkişafının əsas xüsusiyyətləri.

1.3. İxrac potensialının artırılmasında qeyri-neft təmayüllü sahələrin inkişafı üzrə beynəlxalq təcrübə.

**II Fəsil. Azərbaycanda qeyri-neft sektorunun inkişafının makroiqtisadi təhlili və qiymətləndirilməsi.**

2.1. Qeyri-neft sektorunun inkişaf dinamikası və makroiqtisadi təhlili.

2.2. İqtisadi islahatlar və struktur dəyişikliyi şəraitində qeyri-neft sektoru sahələrinin inkişaf problemlərinin açıqlanması və qiymətləndirilməsi.

2.3. Qeyri-neft sektorunun inkişafının yeni mərhələyə qaldırılmasında dövlət dəstəyi mexanizmləri.
**III Fəsil. Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının inkişaf xüsusiyyətləri və mövcud durumu.**
3.1. Ölkədə qeyri-neft sektoru sahələrində ixrac potensialının formalaşması və inkişaf xüsusiyyətlərinin tədqiqi.
3.2. Qeyri-neft sektoru sahələrinin ixrac fəaliyyətinin təhlili və qiymətləndirilməsi.
3.3. Yeni çağırışlar dövründə qeyri-neft sektorunun ixrac potensialından səmərəli istifadə edilməsi məsələləri.
**IV Fəsil. Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının artırılmasında innovasiyalar və yüksək texnologiyalardan istifadənin təşkilati-iqtisadi mexanizmləri.**
4.1. Qeyri-neft sektorunda innovasiya-investisiya fəaliyyətinin səmərəlilik problemləri və bu sahədə vəziyyətin təhlili.
4.2. Qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsində innovasiyayönlü iqtisadi mexanizmlərin tətbiqinin genişləndirilməsi problemləri.
4.3. Qeyri-neft sektorunun ixrac potensialının artırılmasında rəqəmsal texnologiyalardan istifadənin əhəmiyyəti.
**V Fəsil. Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının inkişafının gücləndirilməsi istiqamətləri.**
5.1. Azərbaycanda qeyri-neft sektoru və onun ixrac potensialının qanunvericilik bazasının gücləndirilməsi məsələləri.
5.2. Qeyri-neft sektorunun ixrac potensialının artırılmasında logistika-ticarət sisteminin və gömrük-tarif mexanizmlərinin tənzimlənməsi yolları .
5.3. Postpandemiya və postkonflikt ərazilər kontekstində qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsi istiqamətləri.
**Nəticə.**
**İstifadə olunmuş ədəbiyyat siyahısı.**

## Müdafiəyə təqdim edilən əsas elmi müddəalar:

**1.** *Yeni çağırışlar şəraitində qeyri-neft sektorunun inkişafının təmin edilməsinə və ixrac potensialının artırılmasına müasir konseptual yanaşmaların formalaşdırılması qaçılmaz bir prosesdir.*

İqtisad elmində, ümumilikdə iqtisadiyyatın səmərəlilik problemləri və iqtisadi proseslərin milli iqtisadi maraqlar çərçivəsində təşkili məsələləri ciddi önəm kəsb edir. Bu aspektdə qeyri-neft sektorunun inkişaf xüsusiyyətlərini araşdırmaq və bu məsələlərə sosial-iqtisadi aspektdə yanaşmaq çoxistiqamətli problemlərin öyrənilməsini, sistemləşdirilməsini və müasir dövrün reallıqlarından yanaşmaqla, müvafiq təsir dairəsinin müəyyələşdirilməsini və nəticələrin çıxarılmasını şərtləndirir. Amma, bunun üçün hazırkı problemlərin ilk növbədə klassik iqtisadi nəzəriyyələrin mahiyyətindən və əsas müddəalarından başlayaraq müqayisə edilməsi və baxılması məsələsi vacib əhəmiyyət kəsb edir. Klassik iqtisadi nəzəriyyənin banisi olan Adam Smit "Xalqların sərvəti" əsərində milli resurslardan və sərvətlərdən səmərəli istifadənin vacibliyinə diqqət çəkmiş, mövcud resurslardan istifadənin xalqların rifahı naminə yönəldilməsini vacib hesab etmişdir və bunlarla bağlı dövlətlərin məsuliyyətini, iqtisadi proseslərə müdaxilə məsələlərini qabartmışdır. Eyni zamanda, mövcud resursların, o cümlədən kapital, əmtəə və xammal resurslarının axınlarının səmərəli təşkili və məhsuldar qüvvələrdən istifadənin optimallığına nail olunması məsələlərinə daha çox diqqət yetirilmişdir [1]. Görkəmli dünya iqtisadçıları P.E.Samuelson və V.D. Nordhausun yanaşmalarında iqtisadiyyatda bazar münasibətləri, o cümlədən dövlət-bazar münasibətləri, tələb və təklif amilləri, eyni zamanda makroiqtisadi səviyyədə sosial-iqtisadi problemlər, iqtisadi artım məsələləri, xüsusilə diqqət mərkəzində saxlanılmışdır[2]. Bunlarla bərabər, bir çox iqtisadçı alimlər tərəfindən iqtisadiyyatın müxtəlif sahələrinin üstün amillərinin dəyərləndirilməsi, iqtisadi resurslardan maksimum və səmərəli istifadə olunması mühüm şərtlər kimi qiymətləndirilir.

---

[1]Смит, А. Исследование о природе и причинах богатства народов. Изд-ая группа ЭКСМО, 2019. –С. 249.

[2]Самуэльсон, Пол Э., Нордхаус, Вилиам Д. Экономика: Пер. с англ. – Москва: ООО «И.Д. Вилиямс», 2012.–С. 147.

Məsələn, M.Porter belə hesab edirdi ki: *"İqtisadiyyat sektorlarının mövcud potensialından, eyni zamanda onların üstün determinantlarından səmərəli istifadə edilməsi üçün sistemli və planlı tədbirlərin görülməsi təmin olunmalıdır"*[3]. Nobel mükafatı laureatı P.R.Kruqman isə ölkə iqtisadiyyatın inkişafının təmin edilməsində ticarət amilinin, xüsusilə xarici ticarət konsepsiyasının yüksək səviyyədə qiymətləndirilməsini və dəyərləndirilməsini vacib saymışdır:*"Ölkə iqtisadiyyatının şaxələndirilməsində və ayrı-ayrı iqtisadiyyat sahələrinin inkişaf etdirilməsində ticarət və xarici ticarət amilləri multiplikativ funksiyaları yerinə yetirirlər"*[4].

Qeyri-neft sektorunun inkişafı ölkənin iqtisadi potensialını gücləndirməklə bərabər, sosial-iqtisadi problemlərin həllinə təkan vermək iqtidarındadır. İqtisadi proseslərin səmərəliliyinin artırılması və qeyri-neft sektorunun inkişafı hesabına iqtisadiyyatın şaxələndirilməsi təmin edilmiş olur. Professor Ə.C.Muradov və E.R.Bağırzadə haqlı olaraq yazırlar: *"2014-cü ilin yayından başalayaraq neft qiymətlərinin sürətlə aşağı düşməsindən sonra Azərbaycan iqtisadiyyatında yaşanılan problemlər qarşısında hökumət iqtisadiyyatın artıq post-neft dövrünə daxil olduğunu və bundan sonra iqtisadi artımın əsasən qeyri-neft sektoruna əsaslanacağını bəyan etmişdir"*[5]. Biz də bu fikirdəyik ki, məhz qeyri-neft sektorunun inkişafı hesabına, xüsusilə ixrac potensialının artırılması sayəsində ölkə iqtisadiyyatının böyüməsinə əlavə töhfələr vermək mümkündür. Qeyri-neft sektorunun inkişaf proseslərinin müasir reallıqlar aspektində baxılması və dəyərləndirilməsi sistemli yanaşmaları özündə əks etdirir. Bununla bağlı dövlət səviyyəsində əksər istiqamətlər üzrə konseptual yanaşmalarla bağlı bu və ya digər formatda məqsədli proqramlar, regionların da potensialı nəzərə alınmaqla strateji yol xəritələri, həmçinin regionların sosial-iqtisadi inkişafı ilə bağlı məlum yanaşmalar mövcuddur. Professorlar

---

[3]Porter, M.E. The five competitive forces that shape strategy // - Harvard: Harvard business review, - 2008, 86 (1), – P. 84.

[4]Krugman, P.R. Development, Geography and Economic Theory. The MİT Press. Cambridge, Massachusetts London, England. 1995. –P. 37.

[5]Muradov, Ə.C., Bağırzadə, E.R. Azərbaycan iqtisadiyyatı: infoqrafika, Şərq-Qərb Nəşriyyatı, – Bakı, 2021.– s.18.

İ.M.Abbasov və T.N.Əliyev qeyri-neft sektorunun inkişaf potensialına və onun sosial-iqtisadi aspektlərinə daha çox diqqət yetirmişlər[6]. Bu kimi yanaşmalar və konseptual baxışların əsasında isə ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılması, həmçinin milli iqtisadiyyatın strukturunun qlobal təzyiqlərə və təsirlərə adekvat olaraq diversifikasiyalaşdırılması yer almışdır. Bundan əlavə, bütövlükdə ölkədə sosial-iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi və səmərəliliyinin artırlması başlıca hədəflərdəndir.

Qeyri-neft sektorunun sosial-iqtisadi aspektlərinin müasir qlobal çağırışlardan baxmaqla və qiymətləndirməklə bir sıra məsələlərə dair fikirlərimizi açıqlamaq istərdik (bax: şək. 1).

Şəkil 1-də verilmiş başlıca inkişaf prioritetləri, fəaliyyət istiqamətləri və yaxın perspektiv üçün mühüm əhəmiyyət kəsb edən hədəfləri nəzərə alaraq, hesab edirik ki, hazırkı şəraitdə, həm də COVİD – 19 pandemiyasının qlobal təsirindən formalaşmış bir dövrdə ölkəmizdə qeyri-neft sektoru sahələrinin rolu və əhəmiyyəti xeyli artmaqdadır. Bu ilk növbədə onunla əlaqədardır ki, ölkəmizin valyuta resurslarına olan tələbatının və maliyyə sabitliyi, makroiqtisadi tarazlıqdan ötrü tələb olunan resursların formalaşdırılması, maliyyə təminatının gücləndirilməsi problemləri daha qabarıq olaraq ön plana çıxmışdır.

**2.** *Qlobal iqtisadi transformasiyalar konteksində qeyri-neft sektorunun ixrac potensialının inkişafının yeni xüsusiyyətlərinin tədqiqinə və müəyyənləşdirilməsinə mühüm elmi-nəzəri və praktiki ehtiyac yaranmışdır.*

Qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi tədbirləri genişləndirilməkdədir. Ölkənin qeyri-neft sektorunun ixrac potensialının müasir dövrdə obyektiv təhlilini və qiymətləndirilməsini təmin etmək üçün xarici ticarət dövriyyəsinin dinamikası, xarici ticarətdə bu sektorun payı və onun ixrac quruluşu başlıca araşdırma obyekti olmalıdır. İxrac potensialının stimullaşdırılması və gücləndirilməsi istiqamətində ənənəvi dövlət mexanizmlərinin təkmilləşdirilməsi və ixracın strukturunun genişləndirmə prioritetlərinin müəyyənləşdirilməsi ilə bağlı əlavə tədbirlərə baxılmasını zəruriləşdirir.

[6]Abbasov, İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. – Bakı: "Elm və Təhsil", – 2017. – S. 4.




**Şəkil 1. Azərbaycanda qeyri-neft sektoru sahələrinin inkişaf prioritetlərinin blok-sxemi (Mənbə: müəllif tərəfindən hazırlanmışdır).**

Şəkil 2-də müasir inkişaf səmtləri və qlobal təsirlər də nəzərə alınmaqla, qeyri-neft sektorunun ixrac potensialının inkişafının əsas xüsusiyyətləri və prinsiplərinin blok-sxemi təqdim edilmişdir.




**Şəkil 2. Qeyri-neft sektorunun ixrac potensialının inkişafının əsas xüsusiyyətləri və prinsiplərinin blok-sxemi (Mənbə: müəllif tərəfindən hazırlanmışdır).**

Hesab edirik ki, ölkəmizdə qeyri-neft təmayüllü iqtisadiyyat sahələrinin daha səmərəli formada inkişaf etdirilməsi istiqamətində milli

iqtisadi inkişaf modelinin formalaşdırılmasına əsasən nail olunmuşdur. Amma bu modelin daha da təkmilləşdirilməsi, ixracyönlü istiqamətin səmərəliliyinin artırılması vacibdir. Ölkəmizin ixrac potensialının əhəmiyyətli hissəsi – 90 %-dən çoxu hələ də neft və neft məhsulları – mineral yanacaq məhsulları ilə əlaqəlidir. Buna görə də ölkə ixracının strukturunda qeyri-neft təmayüllü ixrac məhsullarının çeşidinin və həcminin artırılmasında bütün imkanlardan səmərəli istifadə olunması xüsusi zərurət təşkil edir.

**3.** *Neft hasil edən ölkələrdə qeyri-neft təmayüllü iqtisadiyyat sahələrinin inkişafına dair beynəlxalq təcrübənin daha dərindən öyrənilməsinə ehtiyac vardır.*

Dünya ölkələrinin bir çoxunda yeraltı resurslar məhduddur, o cümlədən neft və qaz ehtiyatları ya yoxdur, ya da hasil olunmur, amma elə dünya ölkələri vardır ki, onlarda ixrac potensialının yüksək səviyyədə artırılması mümkün olmuşdur. Qeyri-neft təmayüllü sahələrin ixrac potensialının fundamental şəkildə öyrənilməsi və bu sahədəki fəaliyyətin səmərəli təşkili hesabına bir sıra dünya ölkələrində ixrac potensialının yüksəldilməsində önəmli nailiyyətlər qazanılmışdır.

Səudiyyə Ərəbistanının iqtisadi inkişaf modelinin bir dünya təcrübəsi kimi baxmaq istəyimizin əsas səbəblərindən biri nef-tqaz amili olmuşdursa, digər mühüm bir amil neftkimya kompleksinin, yəni yüksək potensiala malik bir qeyri-neft sektorunun inkişaf səviyyəsi ilə bağlıdır. Bu məqsədlə Səudiyyə Ərəbistanında formalaşdırılmış neftkimya məhsullalrı istehsalı potensialına baxmağı vacib saymışıq. Birincisi, bu sektorda dövlət və özəl şirkətlərin eyni fəallıqla fəaliyyət göstərdiklərini qeyd etmək olar, belə ki, bir tərəfdən dövlət tərəfindən iri kompaniyaların yaradılması hesabına neftkimya sektorunun əhəmiyyətli inkişafı təmin olunmuşdursa, digər tərəfdən xarici investorların fəal olaraq bu sahələrə dəvət olunması diqqət çəkir. 2 nəhəng neftkimya kompaniyalarının: SABİC və Saudi Aramco – şirkətləri vasitəsilə neftkimya layihələrinə 100 milyardlarla investisiyalar yatırılmışdır və nəticədə ümumi neftkimya məhsulları istehsalını orta illik həcmi 60-70 mln. ton səviyyəsinə çatmışdır**.** Yaponiya və Çin investorları da Səudiyyə Ərəbistanının neftkimya bazarında kifayət qədər fəallıq göstərirlər və 10 milyardlarla ölçülən iri investisiyalar yatırırlar. İqtisadiyyatı neft əsasında formalaşdırılmış başqa bir Asiya ölkəsinin – Birləşmiş Ərəb Əmirliklərinin

(BƏƏ) iqtisadi inkişaf proseslərinin xüsusiyyətləri, ölkənin əldə etdiyi nailiyyətlər və iqtisadi inkişaf modelinin formalaşdırılması ilə bağlı yanaşmalar diqqətimizi çəkmişdir. BƏƏ-nin bəzi xüsusiyyətləri ilə ölkəmizin iqtisadi inkişaf prosesləri arasında oxşarlığı da vurğulamaq olar.

Postsovet ölkələri arasında Rusiya və Qazaxıstanda da neft-qaz xammallarının emal proseslərinin dərinləşdirilməsinə diqqət artırılmışdır və bu sahədə milli və xarici şirkətlərin fəallığı kifayət qədər yüksəkdir. Belə ki, məsələn Rusiyanın müxtəlif regionlarında iri neftkimya komplekslərinin yaradılması və eyni zamanda bu istiqamətdə sənaye klasterlərinin təşkilinə diqqət yönəldilməsi daha çox rəqabətqabiliyyətli və ixracyönlü sənaye məhsullarının istehsalına imkan vermişdir[7]**.** Digər bir postsovet respublikası olan Qazaxıstanda xarici investorların neft və qaz emalı müəssisələri şəbəkəsinin yaradılmasına dövlətin strateji yanaşmaları mövcuddur .

**4.** *Azərbaycanda qeyri-neft sektorunun inkişafının makroiqtisadi təhlili əsasında, obyektiv reallıqlar nöqteyi-nəzərindən qiymətləndirilmənin aparılması və adekvat tədbirlərin görülməsi tələb olunur.*

Cədvəl 1-də Azərbaycanın qeyri-neft sektorunda 2015-2022-ci illər üzrə bir sıra göstəricilər verilmişdir.

**Cədvəl 1**

**Azərbaycanın qeyri-neft sektorunda 2015-2022-ci illər üzrə bir sıra göstəricilər**

| Göstəricilər | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| **Qeyri-neft sektorunda yaradılmış əlavə dəyər, mlrd. man** | 37,7 | 44,1 | 46,7 | 50,4 | 50,8 | 62,2 | 69,8 |
| **Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, %-lə** | 69,3 | 62,8 | 58,5 | 61,7 | 70,1 | 66,7 | 52,2 |
| **Qeyri-neft sektorunda yaradılan əlavə dəyərdə qeyri-neft sənayesinin payı, %-lə** | 8,2 | 7,0 | 7,1 | 12,5 | 8,5 | 8,9 | 9,3 |
| **Qeyri-neft sənayesində məhsul istehsalı, mln. manat** | 7660,3 | 9484,8 | 10047,9 | 11321,7 | 11681,0 | 15457,2 | 17576,4 |
| **o cümlədən:** | | | | | | | |
| ***Əvvəlki ilə nisbətən, %-lə*** | 8,4 | 3,7 | 9,1 | 18,6 | 3,17 | 18,9 | 7,1 |

**Mənbə: AR İqtisadiyyat Nazirliyi - https://www.economy.gov.az**

7 Хорохордин, А.Е Стратегия развития современных нефтехимических комплексов, мировой опыт и возможности для России. Дисс. к.э.н. Москва: – 2014. –С. 71.

Cədvəl 1-in təhlilinə baxsaq, görmək mümkündür ki, 2015-2022-ci illərdə qeyri-neft sektorunda yaradılmış əlavə dəyər 85,1 % artmışdır və bu artım əsas etibarı ilə qeyri-neft sənayesində məhsul istehsalının artımı ilə əlaqəli olmuşdur, belə ki, həmin dövr ərzində bu sahədə artım 2,3 dəfə təşkil etmişdir.

Şəkil 3-də Azərbaycanda qeyri-neft sənayesinin ümumi buraxılışının strukturu verilmişdir.




**Şəkil 3. 2022-ci ildə Azərbaycanda qeyri-neft sənayesinin ümumi buraxılışın strukturu, mlyn.manata və faizlə. Mənbə: ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/**

Şəkil 3-dən yanaşdıqda, qeyri-neft sənayesinin ümumi buraxılışında qida məhsulları və içki istehsalının payı 30,0 %-dir, amma bu strukturda güclü potensiala malik olan kimya sənayesi, rezin və plastik kütlə məhsullarının istehsalı, həmçinin metallurgiya sənayesinin inkişafının intensivləşdirilməsi imkanları yüksək olaraq qalır, digər tərəfdən yüngül sənaye sahəsinin imkanlarından zəif istifadə olunmasını qeyd etmək mümkündür. Hesab edirik ki, işğaldan azad olunmuş ərazilərdə tezliklə "tikinti bumu" baş verəcək və bununla əlaqədar olaraq tikinti materiallarının istehsalının həcminin və qeyri-neft sənayesində payının artımı üçün böyük potensial vardır.

Şəkil 4-də Azərbaycanda 2010-2022-ci illərdə emal sənayesi məhsulunun dinamikası əks olunmuşdur və 2022-ci ildə 2019-cu illə müqayisədə artım tempi intensivləşmiş və 53,6 % təşkil etmişdir.




**Şəkil 4. Azərbaycanda 2010-2022-ci illərdə emal sənayesi məhsulunun dinamikası, mlrd. manatla. Mənbə: ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/.**

**5.** *Azərbaycanda iqtisadi islahatların yeni mərhələyə keçməsi ilə bağlı olaraq, qeyri-neft sektoru sahələrinin inkişaf problemlərinin yeni həll mexanizmlərinin işlənməsini zərurətini ortaya çıxarmışdır..*

İqtisadi islahatların səmərəli təşkil olunması və gözlənilən nəticələrin əldə edilməsi daim bu sahədə dövlət siyasətinin səmərəliliyini, qarşıya qoyulan hədəflərin reallığını, fəaliyyət proqramının tətbiq olunan alətlərinin məhsuldarlığını şərtləndirir.

Qeyri-neft sektorunun əsas meyarlarından, inkişaf xüsusiyyətlərindən, mövcud potensialından və gələcək perspektivlərindən yanaşmaqla, bu sektorun GZİT (Güclü tərəflər; Zəif tərəflər; İmkanlar; Təhlükələr) təhlilini aparmışıq (cədvəl 2)**.**

Qeyri-neft sektoru sahələrinin problemlərinin daha sürətli həll edilməsi və məhsuldar mexanizmlər vasitəsilə onların yeni inkişaf mərhələsinə keçməsi təmin olunmalıdır[8]**.** Eyni zamanda, qeyri-neft sektorunun müxtəlif sahələrinin, xüsusilə hazırda qeyri-səmərəli istifadə olunan sahələrin potensialının hərəkətə gətirilməsi, təsərrüfat, kommersiya, maliyyə dövriyyəsinə daxil edilməsi daha çox alternativ iqtisadi artım və maliyyə mənbələrinin formalaşdırılmasına imkan verərdi. Məsələn, ölkəmizdə yüngül sənaye sahələrinin güclü xammal bazasının olmasına baxmayaraq, bu sahədə hazır məhsul strukturu və onun həcmi olduqca aşağı səviyyədədir. Bu sahədə olan problemlərin tənzimlənməsi və sahənin inkişafı ilə bağlı yeni texnologiyalar əsaslı rəqabətqabiliyyətli müəssisələrin yaradılması vacib şərtlərdəndir. Toxuculuq sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi üçün, şübhəsiz bir qrup problemlərin həllinə daha çox diqqət yetirilməlidir[9]**.**

**6.** *Qlobal iqtisadi hədəflər və səmtlərə uyğun olaraq, Azərbaycanda qeyri-neft sektorunu inkişafına dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi və ya yenilənməsi prosesləri müxtəlif səbəblərdən ləngiyir.*

---

[8] Həsənov, H.S. Keçid dövründə iri sahibkarlıq qurumlarının formalaşması və inkişaf problemləri. İ.e.d. Avtoreferatı. Bakı, 2010.–S. 4.

[9] Məmmədova, X.F. Azərbaycan Respublikasında toxuculuq sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi yolları. İ.e.f.d. Avtoreferatı. / Bakı, 2016. – S. 22.

**Cədvəl 2**

**Azərbaycanın qeyri-neft sektoru sahələrinin inkişaf problemləri və vəziyyətinin qiymətləndirilməsinin GZİT təhlili**

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| - Qeyri-neft sektorunun inkişafı üzrə konseptual yanaşmalar formalaşmışdır;<br>- Bu sektorda məqsədli dövlət proqramları və strateji yol xəritələri vardır;<br>- Sektorun dayanıqlı və dinamik inkişafı üçün güclü maddi-texniki baza və infrastruktur şəbəkəsi yaradılmışdır;<br>- Müxtəlif emal sahələrinin istehsal zənciri üzrə genişləndirilməsi mümkündür;<br>- Dövlət tərəfindən sektorun inkişafına güclü dəstək mexanizmləri müəyyənləşdirilmişdir;<br>- Ölkənin iri şəhərləri ilə yanaşı regionlarda da qeyri-neft sektorunun inkişafı prioritetlik təşkil edir və s. | - Qeyri-neft sektorunun müxtəlif istiqamətlərinin müasir və yüksək texnologiyalar əsaslı inkişaf modelinə ehtiyacı vardır;<br>- Sektorun maliyyə təminatı mexanizmlərinin alternativ mənbələri azdır;<br>- Regionlarda qeyri-neft sektoru subyektlərinin idarəetmə və xarici bazarlar çıxmaq üzrə təcrübəsi zəifdir;<br>- Sektorun müxtəlif sahələrinin intensiv inkişafına imkan verən dünya təcrübəsinin öyrənilməsi və tətbiqi ləng gedir;<br>- Sektorun rəqabətqabiliyyətliliyi o qədər də yüksək deyildir və s. |
| **İmkanlar** | **Təhlükələr** |
| - Qeyri-neft sektorunun əlavə dəyər yaratmaq imkanları böyükdür;<br>- Sektorun özünüinkişafetmə xüsusiyyətləri mövcuddur;<br>- Müxtəlif qeyri-neft sektoru sahələrinin yeni emal müəssisələrinin yaradılması üçün yetərincə xammal ehtiyatları vardır;<br>- Ölkənin müxtəlif regionlarında filiz və qeyri-filiz yataqlarının əsasında qeyri-neft təmayüllü emal-sənaye klasterləri və komplekslər yaradılması mümkündür;<br>- Qeyri-neft sektorunun inkiaşfını təmin edəcək əksər resursları – təbii, iqtisadi və insan resursları mövcuddur və s. | - Qeyri-neft sektoruna xarici investisiyaların fəal cəlbi ilə bağlı problemlər qalır;<br>- Uzun illər ərzində göstərilən dövlət dəstəyi mexanizmlərinin, subsidiya və dotasiyaların gözlənilən nəticələri proqnozlaşdırılan səviyyədə deyildir;<br>- Qeyri-neft sektoru sahələrinin mövcud potensial və imkanlarından səmərəli istifadə edilməsi səviyyəsi və nəticələri yatırılan investisiyalara və mövcud resurslara adekvatlıq təşkil etmir;<br>- Qeyri-neft sektorunun hazırkı inkişaf tempindən yanaşsaq, hələ uzun illər iqtisadiyyatın əsasını, gəlirlərin mənbəyini, vergilərin əhəmiyyətli hissəsini neft və qaz sənayesi təmin edəcəkdir və s. |

**Mənbə: GZİT təhlilini müəllif hazırlamışdır.**

Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı davamlı şəkildə dövlət proqramları qəbul olunmuş və digər təyinatlı dövlət proqramlarının əsasında da qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişaf etdirilməsinə ciddi önəm verilmişdir. Hazırda ölkə Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" icra olunmaqdadır[10]. Bu proqramda əsas fəaliyyət istiqamətləri sırasında ölkə iqtisadiyyatının strukturunun genişləndirilməsi, qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi, regionlarda mövcud ehtiyatlardan səmərəli istifadə hesabına yeni əlavə dəyər yaradan mənbələrin formalaşdırılması, rəqabət qabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması, regionların iqtisadi fəallığının gücləndirilməsi və daha çox məhsul istehsalına nail olunması, qeyri-neft ixracının artırılması və s. ciddi önəm kəsb etmişdir.

Müasir reallıqlar nöqteyi-nəzərindən, eyni zamanda hazırkı çağırışlar kontekstindən yanaşdıqda, qeyri-neft sektorunun inkişafının yeni mərhələyə qaldırılmasında dövlət siyasəti və tənzimlənməsi mexanizmlərinin alqoritm – blok-sxemi şəkil 5-dəki kimi verilə bilər.

Məsələyə şəkil 5-də əks olunmuş alqoritmdən baxsaq, yaxın perspektivdə ölkəmizdə qeyri-neft sektorunun yeni inkişaf mərhələsinə keçirilməsində və qeyri-neft ixracının əhəmiyyətli səviyyədə artırılmasında dövlət dəstəyi və tənizmlənməsi mexanizmlərinin rolu aktual olaraq qalacaqdır.

**7.** *Azərbaycanda qeyi-neft sektorunun ixrac potensialının xüsusiyyətlərinin daha real olaraq dəyərləndirilməsi zərurəti bu sektorun ixrac fəaliyyətinin daha dərin təhlilini və obyektiv qiymətləndirilməsini şərtləndirir.*

Azərbaycanda qeyri-neft sektorunun ixrac imkanlarının yüksəldilməsi, ixrac potensialının proqnozlaşdırılan və ixrac imkanlarının sərhədləri çərçivəsində reallaşdırılması məsələləri xeyli aktualdır və etiraf edək ki, bu sahədə istifadə edilməyən ehtiyatlar da vardır. Məsələn, hələ keçmiş SSRİ dövründə Azərbaycanda bir sıra ağır sənaye sahələrinin güclü istehsal bazası və ixrac imkanları olmuşdur. Amma, müstəqilliyin bərpasından sonrakı dövrlərdə bu sahələrin dirçəldilməsi və yüksək

[10] Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. / – Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

texnologiyalar əsasında modernizasiya edilməsi prosesləri bu vaxta kimi başa çatdırılmamışdır, bir sıra sahələrdə isə ümumiyyətlə sistemli tədbirlərin görülməsinə hələ də başlanılmamışdır.




**Şəkil 5. Qeyri-neft sektorunun inkişafının yeni mərhələyə qaldırılmasında dövlət siyasəti və tənzimlənməsi mexanizmlərinin alqoritm – blok-sxemi (Mənbə: müəllif tərəfindən hazırlanmışdır).**

Qlobal çağırışlardan formalaşan yeni iqtisadi ixrac vektoru bütün strukturların funksional fəaliyyətlərinin bərpa olunmasında önəmli rol oynamaqdadır və bunlar öz əksini şəkil 6-da tapmışdır:




**Şəkil 6. Qlobal çağırışlar kontekstində yeni iqtisadi ixrac potensialı vektorunun iqtisadiyyatın bütün strukturlarının funksional fəaliyyətlərinin gücləndirilməsinə təsirinin blok-sxemi (Mənbə: müəllif tərəfindən hazırlanmışdır).**

Şəkil 6-da verilmiş ixrac potensialı ilə bağlı amillər və yanaşmalar təkcə milli iqtisadiyyatın fəaliyyətinin şaxələndirilməsi və dayanıqlılığının artırılması ilə yekunlaşmır, eyni zamanda ixrac potensialının genişləndirilməsi hesabına ölkəmizin xarici-iqtisadi əlaqələrinin coğrafiyası və səmərəliliyini əhəmiyyətli səviyyədə artırır.

2022-ci ildə ümumi ticarət dövriyyəsi 52,69 mlrd. ABŞ dolları təşkil etmişdir və bu 2019-cu illə müqayisədə 58,3 % çoxdur. İdxalın həcmi 2022-ci ildə 14,5 mlrd., ixrac isə 38,1 mlrd. ABŞ dolları səviyyəsində olmuşdur və müsbət saldo 23,6 mlrd. $ həcmində təşkil edilmişdir.

Şəkil 7-də 2010-2022-ci illər üzrə Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsinin dinamikasını təhlil etmişik.




| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ixrac | 21 360,2 | 26 570,9 | 23 908,0 | 23 975,4 | 21 828,6 | 12 729,1 | 13 457,6 | 15 320,0 | 19 489,1 | 19 635,2 | 13 732,6 | 22 208,0 | 38 146,6 |
| idxal | 6 600,6 | 9 756,0 | 9 652,9 | 10 712,5 | 9 187,7 | 9 216,7 | 8 489,1 | 8 783,3 | 11 465,9 | 13 667,5 | 10 732,0 | 11 703,2 | 14 539,9 |
| ticarət dövriyyəsi | 27 960,8 | 36 326,9 | 33 560,9 | 34 687,9 | 31 016,3 | 21 945,8 | 21 946,7 | 24 103,3 | 30 955,0 | 33 302,7 | 24 464,6 | 33 911,2 | 52 686,5 |

**Şəkil 7. Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsinin dinamikası, mlrd. ABŞ dolları, 2010-2022-ci illər. Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.**

Şəkil 7-nin təhlilinə nəzər salsaq görmək mümkündür ki, 2010-2022-ci illər ərzində ümumi ticarət dövriyyəsi qeyri-sabit olmuşdur və bunlar, ilk növbədə əsas ixrac məhsulu olan neftin dünya bazarındakı qiymətlərinin dalğalanmaları ilə əlaqəlidir. Neft qiymətlərinin yüksək olduğu dövrlərdə ixrac dəfələrlə artmışdır. Məsələn, 2011-ci ildə ixracın həcmi 34,4 mlrd. $ olduğu halda, bu göstərici 2015-ci ildə 16,6 mlrd. $, 2019-cu ildə isə 19,5 mlrd. $, 2022-ci ildə isə 38,1 mlrd. $ təşkil etmişdir. İdxalın həcmi isə 2010-2022-ci illərdə iki dəfəyə yaxın artmış və 2022-ci ilin yekununda 14,5 mlrd. ABŞ dolları səviyyəsində qeydə alınmışdır.

Şəkil 8-də Azərbaycan Respublikasında Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə 2022-ci il üçün ixracın quruluşu verilmişdir.




**Şəkil 8. Azərbaycan Respublikasında Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə 2022-ci il üçün ixracın quruluşu, %-lə. Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.**

Şəkil 8-in təhlilinə nəzər yetirsək, ixracın 2022-ci ilin yekununa görə ixracın strukturunda mineral resurslar əsas pay sahibidir və bu göstərici 92,6 %-ə bərabərdir. Qeyri-neft ixracı məhsullarının potensialından məhsuldar istifadə edilməsinin vacibliyi isə açıq aydın görünür və yaxın illərdə bu sahədə daha təsirli tədbirlərin görülməsi tələb olunur.

Ölkəmizin zəngin təbii ehtiyatları potensialını nəzərə alaraq, regionlarda tikinti materiallarının ixracının şaxələndirilməsi üzrə mövcud imkanların dərindən araşdırılması və real ixrac hədəflərinin müəyyənləşdirilməsi olduqca böyük əhəmiyyət daşıyır. Bundan əlavə, neft-kimya məhsullarının yeni çeşidlərinin istehsal olunması və xüsusilə, dünya bazarlarında yüksək tələbat olan ixracyönlü məhsulların istehsalının təşkili və istehsal həcminin artırılması, dünya bazarlarına çıxarılması baxımından ölkəmizdə güclü potensialın olması fikrindəyik.

**8.** *Azərbaycanda qeyri-neft sektorunda innovasiya-investisiya fəaliyyətinin ixrac potensialına təsirinin araşdırılmasına və bu sahədə innovasiyayönlü iqtisadi mexanizmlərin genişləndirilməsinə, rəqəmsal texnologiyalardan istifadənin dərinləşdirilməsinə yönəlmiş tədbirlərin intensivliyi və sürəti hələ ki qənaətbəxş səviyyədə deyildir.*

Qeyri-neft sektoru sahələrinin mövcud mexanizmlərinin və ənənəvi fəaliyyət istiqamətlərinin innovasiya-investisiya fəaliyyəti hesabına yenilənməsinə və daha məhsuldar müstəviyə keçirilməsi, nəticədə ixracyönlü və rəqabətqabiliyyətli məhsulların həcminin artırılması yaxın perspektivdə qarşıda duran başlıca məsələlərdəndir. Bu kimi proseslərin milli innovasiya sisteminin reallaşdırılması əsasında həyata keçirilməsi dünya ölkələrində daha çox prioritetlik təşkil edi[11]. Qeyri-neft sektorunda innovasiya-investisiya fəaliyyətinin maksimum səmərəli təşkili vacib şərtlərdəndir və bu məqsədlə innovasiyalar və texnologiyalar bazarlarının inkişafı üçün zəruri tədbirlər görülməli, təhsilin səviyyəsi artırılmalı, intellektual resurslardan səmərəli istifadə olunması təmin edilməlidir. Bu istiqamətdə ölkədə yaradılan yeni texnoparkların və sənaye parklarının böyük əhəmiyyəti vardır. Məsələn, Sumqayıtda texnopark uğurla fəaliyyət göstərir və Sumqayıt Kimya Sənaye Parkında rezidentlərin

---

[11] Əliyev, Ş.T. Xüsusi iqtisadi zonaların tətbiqi problemləri. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2012. –S. 94.

sayı artıq 36-ya çatmışdır. Bunlarla yanaşı, Qaradağ və Balaxanıda, həmçinin Pirallahıda sənaye parkları fəaliyyətə başlamışlar.

Şəkil 9-da 2010-2022-ci illərdə Azərbaycanda bütün mənbələr üzrə iqtisadiyyata yönəldilən investisiyaların dinamikası təhlil olunmuşdur və göründüyü kimi, 2014-cü ildən başlayaraq investisiyaların ümumi həcmi aşağı düşmüşdür. 2016-2022-ci illərdə isə qeyri-sabitlik davam etmiş və yalnız 2022-ci ildə 2021-ci illə müqayisədə 15 %-ə yaxın artım qeydə alınmışdır.




**Şəkil 9. Azərbaycanda bütün mənbələr üzrə iqtisadiyyata yönəldilən investisiyalar, 2010-2022-ci illər, mlrd. ABŞ dolları. Mənbə: ARSDK-nın rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır – https://www.stat.gov.az/.**

Cədvəl 3-də Azərbaycanda 2010-2022-ci illərdə əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş innovasiya məhsulunun iqtisadi fəaliyyət növləri üzrə həcmi verilmişdir.

**Cədvəl 3**

**Azərbaycanda 2010-2022-ci illərdə əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş innovasiya məhsulunun iqtisadi fəaliyyət növlərinə üzrə həcmi, min manat**

| İqtisadi fəaliyyət növləri | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| *Sənaye - cəmi* | 4384 | 929,7 | 35747 | 14777 | 28952,2 | 21698,1 | 11759,7 | 60977,2 | 72826,9 |
| Mədənçıxarma sənayesi | - | - | 129,6 | - | 215,3 | 2495,7 | 2415,5 | 2843,4 | 3972,1 |
| *Emal sənayesi, onlar-dan* | 4384 | 929,7 | 35617 | 14777 | 28736,9 | 19202,4 | 9344,2 | 58133,8 | 68854,8 |
| Qida məhsullarının istehsalı | | | 402,5 | 590 | 831,2 | 328,0 | - | 3859,2 | 7307,3 |
| İçki istehsalı | | 758 | 41,5 | - | - | - | | | |
| Toxuculuq sənayesi | | | 12844 | - | - | - | 2121,3 | - | - |
| Geyim sənayesi | | | 5213 | - | - | - | - | - | - |
| Kimya sənayesi | | 13,4 | 522,4 | 1705 | 55,0 | - | - | - | - |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı | | | 171,3 | - | - | - | - | - | - |
| Tikinti materiallarının istehsalı | | | 6586 | - | - | - | - | - | - |
| Metallurgiya sənayesi | | | 500 | 2176 | 7690,0 | 12560,0 | 2436,7 | 53035,2 | 61000,0 |
| Maşın və avadan-lıqlardan başqa hazır metal məmulatlarının istehsalı | 1788 | | 9113 | - | - | - | - | - | - |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | | | | 9990 | 19937,9 | 6073,2 | 4742,0 | 1239,4 | 547,5 |
| Maşın və avadanlıqların istehsalı | 1262 | 158,3 | 174,9 | 216 | 222,8 | 241,2 | 44,2 | - | - |

**Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/**

Cədvəl 3-ün təhlilindən yanaşsaq, qeyd etmək olar ki, Azərbaycanda innovasiya məhsulunun həcmi kifayət qədər aşağı səviyyədədir, qeyri-neft sektorunun innovasiya potensialı ilə fərqlənən bir qrup sahələrinin innovasiya potensialını əks etdirən məlumatlar isə yoxdur. Bu istiqamətdə 2021-2022-ci illərdə nisbətən fəallıq nəzərə çarpır və fikrimizcə, yaxın illərdə işğaldan azad olunmuş ərazilərin prioritet hədəfləri nəzərə alınmaqla, yeni innovasiyaların işlənilməsi, yüksək texnologiyaların mənimsənilməsi və tətbiqi prosesləri intensivləşəcəkdir.

Tədqiqat materiallarından yanaşsaq, yaxın perspektivdə ölkəmizdə qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsində innovasiyayönlü iqtisadi mexanizmlərin tətbiqinin genişləndirilməsini proqnozlaşdırmaq mümkündür. Bunu nəzərə alaraq, biz həmin

istiqamətlərdə qeyri-neft ixracının artırılması ilə bağlı, həm də innovasiyayönlü iqtisadi mexanizmlərin tətbiqinin genişləndiril-məsinə mane olan problemlərlə əlaqəli fikirlərimizi və baxışlarımızı açıqlamağa çalışmışıq və bunlar öz əksini şəkil 10-da tapmışdır.




**Şəkil 10. Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsində innovasiyayönül iqtisadi mexanizmlərin tətbiqinin genişləndirilməsi problemləri (Mənbə: müəllif tərəfindən hazırlanmışdır).**

Hesab edirik ki, növbəti illərdə ölkəmizdə milli innovasiya sisteminin formalaşdırılması üzrə tədbirləri sürətləndirmək mümkündür, amma bunun üçün öncə şəkil 10-da verilmiş problemlərin dərindən

araşdırılması, adekvat tədbirlərin görülməsi, qanunvericilik bazasının və vergi mexanizminin təkmilləşdirilməsi, müsir dövrün çağırışlarına uyğun gələn qeyri-neft sektorunun ixrac potensialının artırılması strategiyasının işlənməsi, innovasiyayönlü iqtisadi mexanizmlərin daha çevik və intensiv şəkildə hazırlanaraq həyata keçirilməsi vacibdir.

Ölkə Prezidentinin 2 fevral 2021 il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də bir sıra istiqamətlərlə yanaşı, strateji əhəmiyyət kəsb edən prioritet yanaşmalar kimi rəqəmsal texnologiyaların inkişaf etdirilməsi, elekronlaşdırılmanın genişləndirilməsi, əvvəldə qeyd etdiyimiz kimi "ağıllı" texnologiyaların tətbiqinə ciddi önəmin verilməsi kimi mühüm vəzifələr diqqət çəkirlər[12].

Şəkil 11-ə əsasən Azərbaycanda İKT sektorunda məhsul və xidmətlərin buraxılışı üzrə 2005-2022-ci illərdə qeydə alınan dinamika təqdim edilmişdir.




**Şəkil 11. Azərbaycan Respublikasının İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, mlyn. manat, 2005-2022-ci illər (ARDSK-nın məlumatlarına əsasən müəllif tərəfindən hazırlanıb. https://www.stat.gov.az/source/information_society/).**

[12]Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir: [Elektron resurs] / URL: https://president.az/articles/50474.

Şəkil 11-dən baxsaq, qeyd etmək olar ki, 2005-2022-ci illər ərzində İKT sektorunda məhsul istehsalı 5,5 dəfəyə yaxın yüksəlmişdir. Bu göstərici 2005-ci ildə 462 mln.manat olmuşdursa, 2022-ci ildə 2,5 mlrd. manat təşkil etmişdir.

**9.** *Qeyri-neft sektorunun ixarc potensialının artırılmasında logistika və ticarət sisteminin imkanlarının yenidən qiymətləndirilməsi, gömrük tarif tənzimlənməsi və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi son dərəcə vacibdir.*

Pandemiya dövrünün reallıqları göstərdi ki, dünya səviyyəsindəki proseslər qlobal xarakter daşısa da, antiböhran şəraitində dünya dövlətləri milli maraqlar, milli təhlükəsizlik kontekstində məcburi addımlar atırlar, milli sərhədləri bağlayırlar, müxtəlif zəruri məhdudiyyətlər tətbiq edirlər.

Müasir dövrdə Azərbaycan Respublikasında tətbiq olunan «Gömrük məcəlləsi», «Gömrük tarifi haqqında qanun», rejimlər, malların sərhəddən keçirilməsi haqqında və Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında Azərbaycan Repsublikası Prezidentinin, Nazirlər Kabinetinin qəbul etdiyi qanunlar, qərarlar və normativlər tarif və qeyri-tarif tənzimləmələrini nəzərdə tutan iqtisadi tənzimləmənin həyata keçirilə bilməsi üçün qanunvericilik bazasını təşkil etməkdədir[13].Məlumdur ki, xarici ticarət əlaqələri zamanı istifadə olunan gömrük tənzimlənməsi tətbiq olunma istiqamətinə görə: 1) idxal; 2) ixrac və 3) tranzit tənzimləmələrinə bölünür. Belə ki, xarici ticarət əlaqələrində əmtəələrin gömrük sərhədindən keçirilmə istiqamətləri də müvafiq olaraq: 1) idxal; 2) ixrac və 3) tranzitdir. Digər tərəfdən, qloballaşma şəraitində beynəlxalq ticarət əlaqələrinin reallaşması qeyri-tarif ilə müqayisədə daha çox tarif tənzimlənmələri ilə müşaiyət olunur. Xarici ticarət əməliyyatları zamanı tətbiq olunan tarifləri daxili tarif tənzimləmələrindən fərqləndirmək lazımdır və bilavasitə gömrük orqanları tərəfindən xarici ticarət münasibətlərinin əhatə edildiyini

---

[13] Azərbaycan Respublikasının Gömrük Məcəlləsi: [Elektron resurs] / URL: http://e-qanun.az/framework/46957.

nəzərə alaraq, beynəlxalq ticarət əlaqələrində daha çox gömrük-tarif tənzimlənməsi kimi qiymətləndirirlər.

**10.** *Postpandemiya konteksində və işğaldan azad olunmuş ərazilərin imkanları nəzərə alınmaqla, qeyri-neft sektorunun ixrac potensialının inkişafının yeni istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm zərurət yaranıb.*

Dissertasiya işi üzərində tədqiqat dövründə intensiv fazaya keçəndə hamımız üçün tarixi Böyük Qarabağ Zəfərini yaşamaq nəsib oldu və ölkəmizdə iqtisadi inkişaf prioritetlərinə demək olar ki, yeni prizmadan baxılmağa başlanıldı. Bu baxımdan iqtisadi rayonlaşmada edilən dəyişikliklər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması qeyri-neft sektoru sahələrinin və onun ixrac potensialının gücləndirilməsi istiqamətində yeni inkişaf drayverləri kimi qiymətləndirilməlidir [14]. Hazırda işğaldan azad olunmuş ərazilərdə geniş miqyaslı bərpa və dirçəliş tədbirləri həyata keçirilir, sosial və istehsal infrastrukturu şəbəkəsi yaradılır, sənaye parkları və azad iqtisadi zonalar təşkil olunmaqdadır.

Regionda qeyri-neft sektoru sahələrinin və onun ixrac potensialının artırılmasına əhəmiyyətli səviyyədə təsir gstərəcək nəqliyyat-logistika infrastrukturu qurulmaqdadır. Füzuli və Zəngilan Beynəlxalq Hava Limanlarının istifadəyə verilməsi, Laçın Beynəlxalq Hava Limanının sürətlə tikilməsi regionun arxitekturasını və strateji əhəmiyyətini xeyli dəyişəcək, investisiya cəlbediciliyini isə əhəmiyyətli səviyyədə artıracaqdır. Bunlarla yanaşı, tikinti materialları istehsalı sənayesinin, dağ-mədən sənayesinin inkişaf etdirilməsi üçün güclü resursların olması və ixrac təyinatlı kənd təsərrüfatı məhsullarının istehsalı üzrə geniş imkanların mövcudluğu diqqət çəkir. İşğaldan azad olunmuş ərazilərin inkişafının sürətləndirilməsi ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsinə və xüsusilə qeyri-neft sektoru sahələrinin potensialının artmasına, yüksək

[14] Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.

texnologiyalar əsasında qeyri-neft ixrac məhsulları istehsal edən müəssisələrin yaradılmasına imkan verəcəkdir[15].

Digər bir məqam, covid-19 postpandemiya dövrünün iqtisadi inkişaf drayverləri ilə bağlıdır, belə ki, pandemiyanın mənfi fəsadları nəticəsində yaranmış iqtisadi geriliyin aradan qaldırılması, müxtəlif iqtisadiyyat sahələrinin bərpasının daha səmərəli və məhsuldar mexanizmlər hesabına sürətləndirilməsi, qlobal risklərə və təhdidlərə qarşı dayanıqlı olan iqtisadi inkişaf mexanizmlərinin hazırlanması və tətbiqi daha çox diqqət mərkəzində olacaqdır[16].

Hesab edirik ki, Böyük Qayıdışla bağlı I Dövlət Proqramının yerinə yetirilməsi proseslərində qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün yeni imkanlar formalaşacaq, xüsusilə qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün əlavə mənbələr yaranacaqdır. Bunun əsası kimi ilk növbədə yeni tikilən sənaye obyektlərini və sənaye zonalarını, aqrokompleksləri göstərmək olar. Yeni iş yerlərinin yaradılması, işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyat quruculuğunun təmin edilməsi nəticəsində qeyri-neft sektoru məhsullarının istehsalı və çeşidi ilbəil artacaq və bununla əlaqədar olaraq qeyri-neft ixracının yüksələcəyini proqnozlaşdırmaq mümkündür.

Bütövlükdə, hazırda müasir dövrün obyektiv reallıqları nəzərə alınmaqla, qeyri-neft sektorunun ixrac potensialının yenidən qiymətləndirilməsi, perspektivli inkişaf drayverlərinin diqqətlə öyrənilməsi və ixrac potensialının inkişaf istiqamətlərində zəruri tədbirlərin görülməsi vacibdir. Eyni zamanda, hazırkı vəziyyətdə bir sıra problemləri, yəni qeyri-neft sektoru sahələrinin inkişafını ləngidən və qeyri-neft ixracı potensialının artmasına mənfi təsir göstərən bir sıra məqamlara diqqət yönəltmək istərdik:

1. İxracyönlü sənaye məhsullarının çeşidinin genişləndirilməsi və istehsal həcminin artırılması prosesləri mövcud potensialı

[15] İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 10 dekabr 2021-ci il.

[16] Pandemiyanın (COVID-19) dünya iqtisadiyyatına təsiri. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi: / 08.04.2020. URL: https://iqtisadiislahat.org/store//media/2020/Aprel/08042020_covid_dunya.pdf.

kifayət qədər əks etdirmir. Bu istiqamətlərdə ölkəmzidə olan potensialın xarici ticarət fəaliyyəti dövriyyəsinə cəlb olunması və ixrac potensialının artırılması istiqamətində daha çox tədbirlərin görülməsi zərurəti qalmaqdadır.

2. Məlumdur ki, son illərdə ixracın strukturunda ərzaq məhsullarının, həmçinin ümumilikdə aqrar məhsulların payı strukturu genişlənmiş və həcmi artmaqdadır. Eyni zamanda, ölkədə ərzaq təhlükəsizliyi tədbirlərinin gücləndirilməsinə, bu sahədə idxaldan asılılığın azaldılmasına, bununla əlaqədar olaraq ixracyönlü qida emal sənaye komplekslərinin daha geniş şəbəkəsinin yaradılmasına ehtiyac vardır. Bu tədbirlər qeyri-neft sektorunun ixrac potensialının artırılmasında önəmli rol oynaya bilərlər.
3. Azərbaycanda ənənəvi tekstil müəssisələrinin olmasına baxmayaraq, hazırda bu sahədə vəziyyət qənaətbəxş səviyyədə deyildir. Belə ki, sahənin məhsul istehsalı cüzi səviyyədədir və ölkədə tekstil, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalına kifayət qədər ehtiyac olduğu, bu sahədə yerli xammal bazasının və yarımfabrikatların əldə edilməsi imkanlarının mövcudluğu şəraitində, təəssüf ki, həmin sahələrin inkişafında durğunluq davam etməkdədir və yaxud mövcud potensialdan az istifadə olunur. Bu sahədə həm də ipəkçiliyin inkişaf potensialı nəzərə alınmalı və onun ixrac imkanları daha obyektiv olaraq qiymətləndirilməlidir. Hesab edirik ki, Azərbaycanla strateji əməkdaşlıq əlaqələri olan bir sıra ölkələrin, o cümlədən İtaliya, Türkiyə, Pakistanın qabaqcıl tekstil şirkətləri ölkəmizə cəlb edilməli, onlarla birgə müəssisələrin yaradılması, ixracyönlü tekstil şirkətlərinin fəaliyyətinin təşkili mümkündür və bunun üçün real imkanlar vardır. Nəzərə alsaq ki, ölkəmizdə investisiya mühiti əlverişlidir və bu sahələrin inkişafı üçün dövlət tərəfindən dəstək mexanizmləri də vardır, nəticədə işğaldan azad olunmuş ərazilərdə göstərilən istiqamətlər üzrə yüngül sənaye sahələrinin inkişaf etdirilməsi sayəsində yerli tələbatı ödəməklə bərabər, yeni ixrac potensialı mənbələri formalaşdırılmış olar.
4. Respublikamızın kimya və metallurgiya sənaye sahələri güclü potensiala və rəqabətqabiliyyətlilik xüsusiyyətlərinə malik-

dirlər. Təəssüf ki, kimya sənayesi üzrə məhsul istehsalında və ixracında artım olsa da, bunlar mövcud potensialı tam əks etdirmir. Kimya və neftkimya sənaye sahələrinin əlavə istehsal zənciri üzrə inkişafının təmin olunması qeyri-neft ixracının strukturunu və həcmini əhəmiyyətli səviyyədə artırmaq potensialına malikdir.Bunu üçün ilk növbədə kimya və neftkimya qeyri-neft ixracının həcminin artırılması üçün daha çox neft və qaz xammalının emal olunması infrastrukturu yaradılmalı və yüksək texnologiyalar əsaslı qurğular istismara verilməlidir.

5. Metallurgiya sənayesində məhsul istehsalının həcmi kifayət qədər aşağıdır və indiyədək bu vaxta kimi sahənin modernizasiya edilməsi tədbirləri həyata keçirilməmişdir. Hazırda yalnız əlvan metal məhsulu olan alüminium xammal şəklində ixrac olunur və sovet dövründə də belə idi. Acınacaqlı haldır ki, qara və əlvan metallurgiya sənaye sahələrinin potensialından, ilk növbədə ixrac potensialından istifadə istiqamətində təsirli tədbirlər görülməmiş qalmaqdadır. Müxtəlif vaxtlarda iri metallurgiya klasterinin yaradılmasından danışılsa da, bu məsələlər niyyət şəklində qalmışdır və reallaşdırılmamışdır. Hesab edirik ki, bu sahədə uzunmüddət ərzində inhisarçılıq hallarının olması da, sahənin inkişafına mənfi təsir göstərmişdir. Son illərdə bu sahədə struktur dəyişikliyi aparılmış, inhisarçılıq hallarının aradan qaldırılması istiqamətində işlərə başlanmışdır, amma görülən tədbirlər hələ də özünü faktiki nəticələrdə qeyd olunan səviyyədə ifadə etmir. Xüsusilə, çoxsaylı filiz və qeyri-filizlərin emalını təmin edə biləcək müəssisələrin yaradılması, ümumilikdə dağ-mədən sənayesinin inkişaf etdirilməsi problemlərinin çox hissəsi həll olunmamış vəziyyətdə qalmaqdadır.
6. Azərbaycanda sənaye istehsalının sahə strukturuna baxsaq, ümumi sənaye istehsalında 1 %-dən yuxarı payı olan sahələrin sayı olduqca azdır və bu faktlar sahədəki problemlərin çoxluğunu göstərir və bu səbəbdən xüsusilə ixrac potensialı olan qeyri-neft sahələrin inkişafına kompleks və sistemli yanaşma tədbirləri ortaya qoyulmalıdır.

**7.** Kənd təsərrüfatı və bütövlükdə aqrar sahənin ixrac imkanları ilə bağlı son illərdə davamlı tədbirlər görülməkdədir,

dövlət tərəfindən bu sahədə olan sahibkarlıq və biznes subyektlərinə əhəmiyyətli güzəştlər edilir, subsidiyalar verilir, regionlara və kənd təsərrüfatının inkişafına dövlət tərəfindən məqsədli investisiyalar yatırılır, əsaslı vəsait qoyuluşları yönəldilir. Bütün bu tədbirlər əsasən dövlət büdcəsi vasitəsilə maliyyələşdirilir, regionlarda sosial-iqtisadi inkişafa müsbət təsir göstərir, məşğulluğu gücləndirir, yoxsulluğu azaldır, əhalinin gəlirlərini artırır. Fikrimizcə analoji effektin öz əksini qeyri-neft ixracının strukturunun genişlənməsində və ixrac həcminin artmasında ifadə etməsi xeyli vacibdir. Buna görə də göstərilən istiqamətlərdə məqsədli ixracyönlü fəaliyyət istiqamətlərinin səmərəliliyinə xüsusi diqqət yetirilməli, potensial xarici investorların bu sahələrə cəlb olunması istiqamətində tədbirlər görülməli, ümumilikdə xarici-iqtisadi fəaliyyətin təşkilində yeni çağırışlara adekvat yanaşamalr ortaya qoyulmalı və zəruri tənzimləyici tədbirlər həyata keçirilməlidir və s.

## Dissertasiya üzrə təklif və tövsiyələr:

1. Qeyri-neft sektorunun inkişafının və ixrac potensialının formalaşdırılmasına müasir nəzəri baxışların ortaya qoyulması, dövrün çağırışlarından çıxış etməklə mövcud yanaşmaların yenilənməsi, qeyri-neft sektorunun sosial-iqtisadi aspektlərinə yeni konseptual yanaşmaların dəyərləndirilməsi bu sektorun inkişafı ilə bağlı məsələlərə sistemli yanaşmanın təmin edilməsi strateji önəm kəsb edir.
2. Qeyri-neft sektorunun sosial-iqtisadi aspektləri baxımından ölkənin qarşısında duran iqtisadi prioritetlərin maksimum obyektiv baxılması və hədəflərin müəyyənlədirilməsi təmin olunmalı, bu sektorun inkişaf proseslərində sosial-iqtisadi amillər mərkəzi ana xətt kimi qiymətləndirilməli, insan amili əsas götürülməli, ölkənin iqtisadi və texnoloji inkişaf prioritetləri ilə bərabər, sosial-iqtisadi rifah məsələləri balanslaşdırılmalı, qeyri-neft təmayüllü iqtisadiyyatın inkişafının daha səmərəli mexanizmlər əsasında intensivləşdirilməsi təmin olunmalı və

bu sahədə ixrac potensialının real imkanlarından məhsuldar istifadə olunması həyata keçirilməlidir.

3. Azərbaycanda qeyri-neft sektoru sahələrinin inkişaf prioritetləri, istiqamətləri və hədəfləri sistemli olaraq müəyyənləşdirilmişdir. Bu sektorun böyük ölçüdə ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılmasında strateji rolu danılmazdır. Buna görə də qeyri-neft sektorunun elmi əsaslarla və müasir texnologiyalarla inkişafı intensivləşdirilməli, rəqabətqabiliyyətli və ixracyönlü qeyri-neft təmayüllü fəaliyyət istiqamətlərinin inkişafı daha da sürətləndirilməlidir.
4. Qeyri-neft sektorunun ixrac potensialının inkişafının əsas xüsusiyyətləri və prinsipləri baxımından bir qrup məsələlər daha çox diqqət çəkir:Bu baxəmdan: 1) ixrac potensialının diversifikasiyalaşdırılması strategiyası işlənməlidir; 2) ixrac potensialının artırılması dövlətin xarici ticarət siyasətinin prioritet hədəfləri səviyyəsində reallaşdırılmalıdır; 3) ölkədə ixtisaslaşdırılmış ixracyönlü yeni iqtisadi mexanizmlər, o cümlədən innovasiya və yüksək texnologiyalar əsaslı emal müəssisələri şəbəkəsi yaradılmalıdır; 4) yerli resurslara əsaslanan ixrac istiqamətlərinin inkişafına məqsədli investisiyalar cəlb olunmalıdır; 5) "milli brend" konsepsiyası müasir çağırışlar kontekstində maksimum təkmilləşdirilməlidir və s.
5. İxrac potensialının artırılmasında qeyri-neft təmayüllü sahələrin inkişafı üzrə beynəlxalq təcrübənin yetərincə öyrənilməsi və istifadə olunması məsələsi ölkəmizdə kifayət qədər təmin olunmamışdır. Bir çox neft hasil edən ölkələrdə neft emalının geniş infrastrukturu, o cümlədən neftkimya kompleksinin rolunun yüksəldilməsi üçün tələb olunan qədər investisiyalar yatırılmış və nəticədə bu sahədən gələn gəlirlər dəfələrlə artmışdır. Azərbaycanda isə son illərdə bir neçə iri kimya və neftkimya qurğularının tikilməsinə baxmayaraq, neft emalının və xüsusilə qaz emalının həcmi hələki aşağı səviyyədədir. Bu baxımdan fikrimizcə 2030-cu ilədək olan dövrdə neft emalını 2 dəfə artırmaq, yəni ən azından 10-12 milyon tona çatdırmaq, təbii qaz emalını isə 5 milyard kub metr səviyyəsinə çatdırmaq məqsədəuyğundur. Belə plan qeyri-neft sektorunun ixrac

potensialı təkcə bir sahənin – kimya və neft kimya kompleksinin hesabına 5-8 mlrd. dollar səviyyəsinə qədər artırmaq potensialı mümkün ola bilər və bu isə öz növbəsində əlavə istehsal zənciri üzrə yeni emal komplekslərinin yaradılması hesabına mümkündür.

6. Qeyri-neft sənayesinin ümumi buraxlışının strukturunda son illərdə qida məhsulları və içki istehsalının payı artmaqdadır və bu göstərici hazırda təxminən 35 %-ə qədər təşkil edir. Amma güclü ixrac potensialına malik olan kimya sənayesi, rezin və plastik kütlə məmulatları istehsalının xüsusi çəkisi qeyri-neft sənayesinin ümumi məhsul buraxlışında cəmisi 8-9 % səviyyəsindədir. Bu zaman nəzərə almaq lazımdır ki, Azərbacanda yüngül sənayenin bütün sahələrinin inkişaf etdirilməsi üçün zəruri xammal bazası vardır, əsas xammal növlərinin – pambıq, yun, ipək və dəri istehsalı üçün imkanlar mövcuddur, həmçinin kimya sənayesinin bazasında sintetik parça məhsulları üçün iplərin istehsalı mümkündür.
7. İqtisadi islahatların dərinləşdirilməsi, struktur dəyişkiliklərinin aparıldığı bir şəraitində qeyri-neft sektoru sahələrinin inkişaf problemlərinin obyektiv olaraq müəyyənləşdirilməsi və sistemli şəkildə həll edilməsi tədbirlərinə ciddi ehtiyac vardır. Bu sektorun mövcud vəziyyətinin GZİT təhlili əsasında qeyd etmək mümkündür ki, müxtəlif emal sahələrinin, həm də ixracyönlü sahələrin istehsal zənciri üzrə genişləndirilməsi potensialı mövcuddur, eyni zamanda sektorun əlavə dəyər yaratmaq imkanları və özünüinkişaf xüsusiyyətləri mövcuddur, ixracyönlü müəssisələrin yaradılması üçün yetərincə xammal ehtiyatları, filiz və qeyri-filiz resursları, həmçinin digər iqtisadi və insan resursları kifayət səviyyədədir.
8. Qeyri-neft sektorunun inkişafının qlobal transformasiyalara uyğun olaraq yeni mərhələyə qaldırılmasında dövlət dəstəyi və tənzimlənməsi mexanizmlərinə daha obyektiv yanaşma təmin olunmalıdır. Bunun üçün tərəfimizdən qeyri-neft sektorunun inkişafının yeni mərhələyə qaldırılmasında dövlət siyasəti və tənizmlənməsi mexanizmlərinin alqoritm – blok-sxemi təklif edilmişdir. Bu mexanizmin əsasında qanunvericiliyin

stimullaşdırıcı xüsusiyyətlərinin artırılması ölkədə azad rəqabət mühitinin formalaşdırılmasının dərinləşdirilməsi və inhisarçılıq hallarının aradan qaldırılması, qeyri-neft ixracyönlü sahələrin investisiya cəlbediciliyinin maksimum artırılması, milli innovasiya sisteminin yaradılmasının başa çatdırılması və xüsusilə regionlarda innovasiya zonalarının təşkili proseslərinin sürətləndirilməsi, ixracatçı subyektlər üçün maliyyə-kredit resurslarına əlçatanlığın təmin olunması, daha çevik və işlək nəqliyyat-logistika sisteminin formalaşdırılması, ixracatçısı subyektlərə beynəlxalq bazarlara daha fəal çıxmaqda praktiki dəstəyin göstərilməsi, rəqəmsal və İKT əsaslı xidmətlər paketinin hazırlanması və s. yer almışdır.

9. Azərbaycanda qeyri-neft sektoru sahələrində ixrac potensialının formalaşması və onun inkişaf xüsusiyyətlərinin tədqiqi əsasında belə bir qənaətə gəlinmişdir ki, ixrac potensialının artımına mane olan amillər, baryerlər müəyyənləşdirilməli və adekvat tədbirlərin görülməsi ön plana çıxmalıdır. Ölkə regionlarında qeyri-neft sektoru sahələrinin ixracı üzrə müəssisələrin ixtisaslaşması və onların inkişafının təmin olunması üçün "İxrac potensialı analitik baza-məlumat bankı"nın və "İxrac bankı"nın yaradılmasını vacib hesab edirik.
10. Qlobal çağırışlar konteksində yeni iqtisadi ixrac potensialının vektorunun işlənməsi və onun iqtisadiyyatın bütün strukturlarının funksiyonal fəaliyyətlərinin gücləndirilməsinə təsirinin müəyyənləşdirilməsi, ixrac potensialının artımına əhəmiyyətli təsir göstərən amillərin qiymətləndirilməsi təmin olunmalıdır. Bu halda ixrac potensialının artırılması bütövlükdə milli iqtisadiyyatın maliyyə gücünü və rəqabətqabiliyyətliliyini daha da yüksəldər, ölkəyə daha çox valyuta vəsaitlərinin gətirilməsinə imkan verər, texnologiyalar, kapital-maliyyə, xidmət bazarları daha sürətlə inkişaf edər, makroiqtisadi sabitlik üçün ciddi əsaslar yaradılar, iqtisadi fəallıq trayektoriyası genişlənər, yeni iş yerləri açılar, yerli və rəqabətqabiliyyətli, həmçinin ixracyönlü məhsulların strukturunun diversifikasiyalaşdırılmasına və həcminin artırılmasına motivasiyalar çoxalar,

investorların qeyri-neft sektoru sahələrinə geniş şəkildə cəlb olunmasını stimullaşdırar.

11. Qeyri-neft sektoru sahələrinin ixrac fəaliyyətinin təhlili və qiymətləndirilməsi nəticəsində bu qənaətə gəlmişik ki, Azərbaycan Respublikasında Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracın quruluşunun son illərdəki vəziyyəti qənaətbəxş deyildir və ölkə ixracının 90 %-dən çoxu mineral resursların: neft və qaz xanmalının ixracından ibarətdir.Hesab edirik ki, qeyri-neft ixrac məhsullarının potensialından daha məhsuldar istifadə olunması istiqamətində görülən tədbirlərin səmərəliliyi artırılmalıdır.O cümlədən: 1) emal potensialına malik xammalların əsasında ixracyonlü istehsal sahələrinin genişləndirilməsi tədbirləri sürətləndirilməlidir; 2) neft və qaz xammallarının emalı istiqamətində özəl sektorun fəaliyyətinin daha geniş və məhsuldar şəkildə təşkili prioritetlik səviyyəyə qaldırılmalıdır; 3) aqrar-sənaye kompleksinin ixrac çeşidinin genişləndirmək potensialı ciddi şəkildə dəyəndirilməli və aqrar məhsulların ixrac strategiyası hazırlanaraq reallaşdırılmalıdır; 4) ölkədə ağır sənaye sahələrinin ixrac potensialı daha obyektiv şəkildə qiymətləndirilməli və bu sahədəki ehtiyat imkanlardan istifadəyə yeni münasibət formalaşmalıdır.
12. Yeni çağırışlar şəraitində qeyri-neft sektoruunun ixrac potensialından istifadənin tənzimlənməsi məsələləri, bütövlükdə bu sektoreun ixrac potensialını formalaşdıran və şərtləndirən amillərin təsnifatının hazırlanmasını tələb edir və bunu nəzərə alaraq həmin amillərin təsnifatının blok-sxemi təqdim olunmuşdur. Burada bir çox amillər daha diqqət çəkirlər: 1) ölkədə qeyri-neft təmayüllü ixrac məhsulılarının strukturunun maksimum diversifikasiyalaşdırılması; 2) ixrac potensialının artırılması baxımından daha çox perspektivə malik olan qeyri-neft sektoru sahələrinə məqsədli investisiyalartın cəlb olunması təbirlərin görülməsi; 3) daim artmaqda olan rəqabət mühitinə uyğunlaşmaq və potensial bazarlarda möhkəmlənmək üçün ixrac təyinatlı qeyri-neft məhsullarının rərabət qabiliyyətinin artırılması strategiyasının işlənməsi və həyata keçirilməsi; 4) dövlət tərəfindən qeyri-neft ixracının stimullaşdırılması, dəstək

mexanizmlərinin təkmilləşdirilməsi tədbirlərinin yenilənməsi və bu istiqamətdə “milli brend” xarakterli ixracyönlü məhsullara prioritet xarakteri verilməsi məqsədəuyğundur.

13. Mövcüd vəziyyətdən, ölkəmizdə qeyri-neft sektorunun inkişaf hədəflərindən və prioritetlərindən çıxış etməklə, bu sektorun ixrac potensialından səmərəli istifadənin tənzimlənməsində dövlət dəstəyi mexanizmlərinin əhəmiyyətli səviyyədə təkmilləşdirilməsini vacib hesab edirik. Bunun üçün ilk növbədə hazırda tətbiq olunan mexanizmlər yeni qlobal çağırışlara uyğunlaşdırılmalı, qeyri-neft ixracının işlək maliyyə və sığorta təminatı mexanizmləri işlənib hazırlanmalı, ixrac əməliyyatlarının həcminin genişləndirilməsi üçün kredit resurslarının əlçatanlığı və vergi güzəştlərinin maksimum stimullaşdırıcı rolu təmin edilməli, qeyri-neft ixrac infrastrukturunun gücləndirilməsi həyata keçirilməli, sahibkarlıq və biznes subyektlərinin qeyri-neft ixracının strukturunun genişləndirilməsində və həcminin artırılmasında təxirəsalınmaz tədbirlər görülməlidir.
14. Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün, fikrimizcə ilk növbədə, rəqabətqabiliyyətli və diversifikasiyalaşdırılmış iqtisadiyyata nail olmaq və bu proseslərdə qeyri-neft sənayesinin rolunu artırmaq  vacib şərtlərdəndir. Bunun üçün həmin sahələrdə fəaliyyətin şəffaflıq və hesabatlılıq səviyyəsini dərinləşdirmək, yüksək texnologiyaların transferi və innovasiya məhsullarının alınması üzrə fəaliyyətin stimullaşdırılması üzrə xüsusi mexanizmləri işləyib hazırlamaq , ölkə regionlarında ixracyönlü fəaliyyət sahələrinin resursları əsasında ixtisaslaşdırılmış sənaye parklarının, aqrosənaye komplekslərinin, sənaye və turizm klasterlərinin, həmçinin azad iqtisadi zonaların yaradılması proseslərin intensivləşdirilməsi təmin olunmalıdır.
15. Azərbaycanda qeyri-neft sektorunda innovasiya-investisiya fəaliyyətinin səmərəlilik problemləri və onların həllinə yanaşmaları baxımından fikrimizcə aşağıdakı tədbirləri həyata keçirmək məqsədəuyğundur: 1)dünya standartlarına və təcrübəsinə uyğun şəkildə milli innovasiya sistemi formalaşdırılmalıdır; 2) innovasiya fəaliyyəti ilə bağlı güclü və işlək

qanunvericilik bazası yaradılmalıdır; 3) ixrac potensialı yüksək olan qeyri-neft sektoru sahələrinin investisiya cəlbediciliyinin artırılması problemləri həll olunmalıdır; 4) ölkədə yeni innovasiyaların işlənməsi, mənimsənilməsi və ixracyönlü innovasiya məhsullarının istehsalının strukturunun genişləndirilməsi, həcminin artırılması üçün müvafiq innovasiya infrastrukturu təşkil edilməli və innovasiya zonaları, innovasiya mərkəzləri yaradılmalıdır; 5) innovasiya məhsullarının istehsalı üzrə dövlət sifarişi mexanizmi tətbiq edilməli və ümumilikdə innovasiya məhsullarının istehsalına marağı artırmaq üçün xüsusi innovasiya – qrant layihələri həyata keçirilməlidir; 6) hazırkı şəraitdə işğaldan azad olunmuş ərazilərdə "ağıllı" texnologiyalardan istifadənin prioriotetliyi əsas götürülməklə, Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında innovasiya zonalarının və ya ixtisaslaşdırılmış innovasiya mərkəzlərinin və müəssisələrinin yaradılması təmin edilməlidir.

16. Müasir dövrdə Azərbaycanda qeyri-neft sektorunun genişləndirilməsi, bu sahələrdə ixracyönlü innovativ inkişaf modelinin tətbiqinin dərinləşdirilməsi proseslərində dünya təcrübəsindən çıxış edərək, azad iqtisadi zonaların önəmli rolu ön plana çıxarılmalıdır. Ələt İqtisadi Zonasının fəaliyyətə başlaması üçün əsaslı işlər görülmüşdür. İşğaldan azad olunmu Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması prosesləri intensivləşməkdədir. Hesab edirik ki, işğaldan azad olunmuş digər ərazilərdə, eyni zamanda, ölkənin təbii və iqtisadi resurslarla zəngin digər regionlarında azad iqtisadi zonaların elmi cəhətdən əsaslandırılması və təşkili prosesləri sürətləndirilməlidir.
17. Qeyri-neft sektorunun ixrac potensialının artırılmasında logistika və ticarəti sisteminin gücləndirilməsi tədbirləri həyata keçirilməli və bununla bağlı logistika zəncirinin idarəetmə funksiyasının təkmilləşdirilməsi təmin olunmalıdır.
18. İşğaldan azad olunmuş ərazilərin potensialı və postpandemiya dövrünün çağırışları əsas götürülməklə, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsi tədbirlərinin görülməsi müasir dövrümüzün strateji vəizfələri kimi qiymətləndiril-

məlidir. Covid-19 koronavirus pandemiyasının təsirindən yaranan yeni şəraitdə qeyri-neft ixrac sahələrinin dəstəklənməsi tədbirlərinin ən azından yaxın iki ildə davam etdirilməsinə xüsusi ehtiyacın olduğunu hesab edirk.Bununla yanaşı perspektivli ixracyönlü qeyri-neft sektoru sahələrinin fəaliyyətinin genişləndirilməsi və dəstəklənməsi tədbirləri intensivləşdirilməlidir. İşğaldan azad olunmuş ərazilərdə onların ənənəvi və spesifik fəaliyyət istiqamətləri ilə yanaşı, əvvəldə qeyd etdiyimiz kimi, müasir texnologiyalar əsaslı qeyri-neft sektoru sahələrinin inkişafı xüsusi diqqət mərkəzində saxlanılmalıdır və artıq bu işlərə başlanılmasını qeyd etmək olar.

19. Müasir qlobal silkələnmələr və çağırışlar əsas götürülməklə, Azərbaycanın iqtisadi inkişaf modelinin yeni prioritetlərinin və hədəflərinin strateji əhəmiyyətindən yanaşmaqla, ölkəmizdə makroiqtisadi və makromaliyyə sabitliyinin təmin olunmasında alternativ valyuta mənbələrinə ciddi zərurətin olduğu nəzərə alınmaqla, ixrac potensialının artırılması baxımından perspektivli qeyri-neft sektoru sahələrinin uzunmüddətli dövr üçün kompleks inkişafını təmin etmək məqsədilə, “2024-2030-cu illərdə Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının artırılması üzrə Dövlət Proqramı”nın hazırlanması və qəbul edilməsini məqsədəuyğun sayırıq.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:**

1. Совершенствование таможенно-тарифного регулирования внешней торговли в контексте экономической безопасности// Научно-практический журнал «Экономика. Управление. Право», Москва. 2012, №9 (33), s. 26-28.
2. Azərbaycanda iqtisadi resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi yolları// «AMEA-nın Xəbərləri» jurnalı. İqtisadiyyat seriyası, Bakı. 2018, №5, s.21-28.
3. Azərbaycan iqtisadiyyatının inkişaf meyiləri və diversifikasiyalaşdırılması// «AMEA-nın Xəbərləri» jurnalı. İqtisadiyyat seriyası, Bakı. 2019, №4, s. 40-45.
4. Qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri// «AMEA-nın Xəbərləri» jurnalı. İqtisadiyyat seriyası, Bakı. 2019, №5, s. 44-49.
5. Pandemiya dövründə qeyri-neft sektorunun vəziyyəti və diversifikasiyası// «AMEA-nın Xəbərləri» jurnalı. İqtisadiyyat seriyası. Region və sahə iqtisadiyyatı. 23.12.2021, Bakı şəhəri, s. 71-77.
6. Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialından istifadənin səmərəliliyində vergi aspektləri// Azərbaycan vergi jurnalı, 2020, №1 (140), Bakı şəhəri, s. 135-150.
7. Qeyri-neft sektoruna investisiya qoyuluşu və onun tənzimlənməsi// «AMEA-nın Xəbərləri» jurnalı. İqtisadiyyat seriyası, 2021, №1, Bakı şəhəri, s. 191-197.
8. Müasir dövrdə qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsi kontekstində qanunvericilik bazasının təkmilləşdirilməsi// «AMEA-nın Xəbərləri» jurnalı. İqtisadiyyat seriyası, 2021, №4, Bakı şəhəri, s. 61-70.
9. Azərbaycanın qeyri-neft sektoru sahələrinə xarici investisiyaların cəlb olunmasının müasir aspektləri və perspektivləri// «AMEA-nın Xəbərləri» jurnalı. İqtisadiyyat seriyası, 2021, №06, Bakı şəhəri, s. 74-84.
10. Azərbaycanda qeyri-neft ixrac potensialının yüksəldilməsində logistika-ticarət sisteminin strateji aspektləri // "Geostrategiya" jurnalı, 2022, №06, Bakı şəhəri, s. 87-91.

11. Qeyri-neft sektorunun ixrac potensialının artırılmasında gömrük-tarif tənizmlənməsinin və dövlət dəstəyi mexanizmlərinin əhəmiyyəti // "Geostrategiya" jurnalı, 2022, №04, Bakı şəhəri, s.95-99
12. Важность усиления развития экспорта ненефтяной продукции Азербайджана в современных условиях// «Финансовая экономика», 2022, №03, Moskva şəhəri, с. 266-269.
13. Актуальные проблемы и вопросы развития экспортного потенциала ненефтяного сектора в Азербайджане// «Финансовая экономика», 2022, №04, Moskva şəhəri, с. 405-409.
14. Increasing the role of innovations in Increasing the export potential of the nonoil Sector// German International Journal of Modern Science. Satteldorf, 2022, №35, Germany, p.13-15.
15. Development of the non-oil sector in Azerbaijan and its assessment // Polish Journal Of Science, 2022, №51, p.13-18
16. Qeyri-neft sektorunun ixrac potensialinin tənzimlənməsinin təkmilləşdirilməsi// ENECO. Proceedings Of Energy Economic Research Center, 2022, Volume 09 issue 01, Bakı şəhəri, s.13-19.
17. Analysis on the export potential in Azerbaijan beyond Oil Sector// Universidad Y Sociedad, 2023-03-21, Vol 15, №2, Cuba, p.523-535.
18. Azərbaycanın qeyri-neft sektorunun inkişafı və onun qiymətləndirilməsi// "İqtisadi islahatlar" elmi-analitik jurnal, 2022, №03(4), Bakı şəhəri, s.42-51.
19. Qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsində innovasiya imkanları// «AMEA-nın Xəbərləri» jurnalı. İqtisadiyyat seriyası, 2022 (sentyabr-oktyabr), 2022, №5, Bakı şəhəri, s.38-45.
20. Azərbaycanda qeyri-neft sektoru sahələrinin inkişaf vəixrac potensialının manevrləşdirilməsi yolları// "İnnovasiyalı iqtisadiyyat və menecment", Azərbaycan Texnologiya Universiteti, 2022, №3, Gəncə şəhəri, s. 305-310.
21. Azərbaycanın qeyri-neft sektorunun ixrac imkanlarından

səmərəli istifadə edilməsi prioritetləri// “İnnovasiyalı iqtisadiyyat və menecment”, Azərbaycan Texnologiya Universiteti, 2022, №4, Gəncə şəhəri, s.271-276.
22. Ways of expanding the logistics system of production diversification// 70th International Scientific Conference on Economic and Social Development, 25-26 iyun 2021, Bakı şəhəri, p.646-655
23. Problems in the development and management of the non-oil sector// 16th international strategic management conference, October 28-30-2021, Bakı şəhəri, s.193-197.
24. Повышение экспортного потенциала ненефтяного сектора и его роль в развитии экономики Азербайджана// II Internatioanl Scientific and Practical Conference Global Approach to Scientific Research, 4 dekabr 2021, InterConf, (89), s 35-46.
25. Azərbaycanda rəqabətqabiliyyətliliyin təmin edilməsində idxal-ixrac əməliyyatlarının rolunun artmasının müasir aspektləri// İqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsi yolları. Respublika Elmi konfrans. Sumqayıt Dövlət Universiteti. 17-18 oktyabr 2017, s.270-273.
26. Socio-Economic Problems Of The Non-Oil Sector In Modern Condition// 37 th international Scientific Conference on Economic and Social Development Socio Economic Problems of Sustainable Development”. 14-15 fevral 2019-cu il, Bakı. Book of Abstracts, s.651-656.
27. Sosial-iqtisadi siyasətin müasir dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilməsi məsələləri// Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri. Respublika Elmi konfransının materialları, 25-26 aprel 2019, Sumqayıt şəhəri, s.265-268.
28. Azərbaycan iqtisadiyyatının inkişaf meyilləri və diversifikasiyalaşdırılması problemləri// “Azərbaycanın iqtisadi inkişaf strategiyası” mövzusunda Respublika Elmi Konfransın Materialları, 24 dekabr 2019, UNEC, Bakı, s.264-268.
29. Проблемы усиления экспортного потенциала ненефтяного сектора Азербайджана в условиях глобальных вызовов// IX

Международная Научно-Практическая Конференция «Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков», 28 марта 2022 года, Moskva şəhəri, s.287-296.
30. Перспективы совершенствования структуры ненефтяного экспорта в Азербайджане// X Международная Научно-Практическая Конференция Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков, 25 апреля 2022 года, Moskva şəhəri, s.167-175.
31. Rəqəmsal iqtisadiyyat şəraitində elektron ticarətin inkişaf problemləri// II Beynəlxalq konfrans Rəqəmsal İqtisadiyyat: Müasir Çağırışlar və Real İmkanlar, 28-19 aprel 2022, UNEC. Bakı/ Azərbaycan, s.527-530 .
32. Heydər Əliyev Azərbaycanın iqtisadi inkişaf strategiyasının banisidir// Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönumunə həsr olunmuş Respublika Elmi-Praktiki konfrans materialları. I cild, 2021, UNEC, Bakı şəhəri, s.268-272.
33. Qeyri-neft ixrac potensialının gücləndirilməsində logistika infrastrukturunun strateji rolu// "Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu" mövzusunda Respublika Elmi konfransının Materialları, 22-23 oktyabr 2020-ci il, Sumqayıt Dövlət Universiteti., s.170-174.
34. Azərbaycanda qeyri-neft sektorunda ixrac potensialindan istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri// "İnformasiya cəmiyyətində iqtisadiyyatın davamlı inkişaf problemləri" Beynəlxalq elmi konfransın materialları, 16-17 dekabr 2021-ci il, Sumqayıt şəhəri, s.616-621.
35. Azərbaycanda idxal və ixracın gömrük-tarif tənzimlənməsinin təkminləşdirilməsi istiqamətləri// Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "İqtisadi inkişafda qlobal çağırışlar və perspektivlər" mövzusunda Respublika elmi konfransın materialları, UNEC, 11 may 2022, Bakı şəhəri, s. 80-83.

36. Müasir şəraitdə logistika sisteminin iqtisadiyyatın inkişafında rolunun artması// – Bakı: Kooperasiya jurnalı, – 2023. №02, – s.24-31.
37. Lu Chen, Farqana Musayeva, Mengze Zhang, Rashad Huseynov, Zibeyda Arif Shakaraliyeva. Paradigms and Practical Realities of the Social Economy// International Journal of Sustainable Development and Planning, Vol. 19, No. 4, April, 2024, pp. 1291-1298. https://doi.org/10.18280/ijsdp.190407.

Dissertasiyanın müdafiəsi 25 dekabr 2024-cü il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək

Ünvan: Az.1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir (www.unec.edu.az).

Avtoreferat 19 noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.10.2024
Kağızın formatı: 60x84 / 16
Həcm: 79660 işarə
Tiraj: 100